*"Peşəkar Futbol Liqası" İctimai Birliyinin*
*Prezidenti tərəfindən təsdiq olunub*
*Elxan Səmədov*
*07.07.2025-ci il*

**Azərbaycan Premyer Liqası, Azərbaycan Kuboku, Əvəzedicilər Liqası və I Liqa yarışlarının 2025-2026-cı illər mövsümünün**

# ƏSASNAMƏSİ

**1. Məqsəd və vəzifələr**

1. Futbolçuların ustalığının yüksəldilməsi;
2. Yarışların yekununda komandaların tutduqları yerlərin müəyyən edilməsi;
3. Beynəlxalq yarışlarda çıxış edəcək komandalara namizədlərin hazırlanması;
4. Avrokuboklarda iştirak edəcək komandaların müəyyən edilməsi;
5. Azərbaycanın əsas və müxtəlif yaş qrupları üzrə milli komandaları üçün yetərli bazanın formalaşdırılması;
6. Ölkə ərazisində sağlam həyat tərzinin təbliği;
7. Azarkeşlərin istirahətinin təşkili və onların rahatlığının təmin edilməsi, eləcə də mövsüm ərzində bir sıra tədbirlərin həyata keçirilməsi.

**2. Peşəkar Futbol Liqasının səlahiyyətləri**

1. Premyer Liqa, I Liqa, II Liqa, Əvəzedicilər Liqası və Azərbaycan Kuboku uğrunda yarışların keçirilməsini və onlara nəzarəti Peşəkar Futbol Liqası (PFL) həyata keçirir.

2. PFL aşağıda qeyd olunanları həyata keçirir:

- Futbol mövsümünün qüvvədə olan Əsasnaməsinin, təqviminin, eləcə də digər hüquqi və lazımi sənədlərin hazırlanması və təsdiq edilməsi;
- Çempionatın operativ idarəetmə struktur və bölmələrinin formalaşdırılması, onların funksiya və səlahiyyətlərinin müəyyənləşdirilməsi;
- Çempionatda iştirak etmək üçün klubların müqavilələrinin, sifariş vərəqələrinin və digər lazımi sənədlərin kağız formada və elektron baza üzərindən qəbul prosedurunun aparılması;
- Futbolçular, klub rəsmiləri, transfer müqavilələri, icarə müqavilələri üzrə sənədlərin qeydiyyatı;
- Çempionatın keçirilməsi və klubların çempionatda iştirakını təmin etmək üçün PFL-in fəaliyyəti və səlahiyyətləri ilə bağlı ödənişlərin məbləğinin təsdiq edilməsi;
- Çempionatın keçirilməsi ilə bağlı AFFA komitə və komissiyalarının işində, o cümlədən belə komitə və komissiyaların fəaliyyətini tənzimləyən müvafiq sənədlərin qəbulunda nümayəndələri vasitəsilə iştirak;
- Bu Əsasnamədə nəzərdə tutulmuş hallarda və qaydada matçların təxirə salınması (tarixin, başlanğıc vaxtının və yerinin dəyişdirilməsi);
- Oyunların nəticələrinin qeydə alınması;
- Sponsorluq müqavilələrinin hazırlanması və bağlanması;
- Çempionatın keçirilməsi üçün lazım olan atributların hazırlanması;
- Futbolun kütləviləşdirilməsi, populyarlaşdırılması üçün müxtəlif, o cümlədən sosial yönümlü tədbirlərin təşkili və keçirilməsi;
- Televiziya, həmçinin internet üzərindən oyunların onlayn yayımının təşkili. İnternet üzərindən olan onlayn yayımların və digər materialların eksklüziv yayım və satış hüququ PFL-ə məxsusdur. Klublar, eləcə də internet üzərindən onlayn yayımda maraqlı olan bu və ya digər şirkətlər bütün məsələləri PFL ilə razılaşdırmalıdır. Əks halda, bununla bağlı müvafiq intizam və qanunvericilik əsasında

tədbirlər görüləcək.

- PFL loqosu, yarışların loqosu, mükafatlar (medallar), onların formaları, dizaynı və s. müəlliflik hüququnun digər obyektləri PFL-ə məxsusdur.

- Daxili işlər orqanları, eləcə də çempionat zamanı ictimai asayişi və təhlükəsizliyi təmin edən digər strukturlar ilə əməkdaşlıq;

- Çempionatın keçirilməsi ilə bağlı AFFA komitələrinin, hüquq orqanlarının və komissiyalarının işində birgə iştirakla operativ əməkdaşlıq;

- Çempionatın Əsasnaməsinin qaydalarına riayət olunmasına nəzarət edilməsi;

- Mövsümün sonunda mükafatlandırma mərasimlərinin təşkili, xüsusi mükafat və hədiyyələrin verilməsi;

- Dopinq-test prosedurunun mümkünlüyünün təmin edilməsi;

- Bu Əsasnaməyə uyğun olaraq digər səlahiyyətlər.

3. PFL bayrağı altında keçirilən yarışlarda iştirak edəcək klublar, futbolçular, məşqçilər bu və ya başqa formada iştirakçı olan bütün digər şəxslər qüvvədə olan Əsasnaməni tanımalı və onların şərtlərinə əməl etməlidirlər. Əks təqdirdə, onlar İntizam Məcəlləsinə uyğun olaraq cəzalandırılacaqlar.

4. PFL İdarə Heyəti idman prinsiplərini rəhbər tutaraq Əsasnamədə qeyd olunmayan, amma meydana çıxa biləcək digər məsələlərlə bağlı da qərarlar qəbul edə bilər.

5. PFL idman prinsiplərinə əsasən, çempionatın həlledici oyunlarının başlama vaxtını eyni günə və eyni saata təyin etmək səlahiyyətinə malikdir.

## 3. Yarışların təşkili və keçirilmə şərtləri

1. Çempionat iştirakçılarının siyahısı lisenziya əsasında müəyyənləşir və AFFA İcraiyyə Komitəsi tərəfindən təsdiq edilir.

2. Premyer Liqa, I Liqa, Əvəzedicilər Liqası və Azərbaycan Kuboku yarışlarında bir klub bir komanda ilə təmsil oluna bilər. Klub və komanda adları eyni olmalıdır. Təşkilati-hüquqi formanın dəyişdirilməsinin zəruriliyi qanunla nəzərdə tutulan hallar istisna olmaqla, çempionatın gedişində klubun və komandanın adını dəyişdirməsinə icazə verilmir. İstisna hallarda mövsümün gedişində klubun adı dəyişdirilirsə, komandanın adı yenisi ilə əvəzlənir. Adı dəyişdirilmiş klub hüquqi cəhətdən əvvəlki klubun PFL üzvlüyünü

saxlayır, əvvəlki klubun varisinə çevrilir, yarışlarda iştirak etməklə bağlı əvvəllər ortaya çıxan bütün hüquq və öhdəlikləri yerinə yetirir. Komandanın adının qarşısında rəsmi sponsor adlarından istifadə edilməsinə icazə verilir.

3. Payız-yaz sistemi ilə keçirilən Premyer Liqaya adları aşağıda göstərilmiş 12 komanda buraxılır:

1. “Araz-Naxçıvan” PFK
2. “İmişli” FK
3. “Karvan-Yevlax” FK
4. “Kəpəz” PFK
5. “Qarabağ” FK
6. “Qəbələ” İK
7. “Neftçi” PFK
8. “Sabah” FK
9. “Sumqayıt” FK
10. “Şamaxı” PFK
11. “Turan Tovuz” PFK
12. “Zirə” FK

4. Premyer Liqada yarış ev və səfər prinsipinə əsasən dairəvi sistemlə 3 dövrədə keçirilir və 33 turdan ibarətdir. III dövrənin oyunlarında meydan sahibi olacaq komandalar püşk əsasında müəyyənləşdirilir. Püşkatma prosesi əlifba sırasına uyğun olaraq aparılır. Mövsümün sonunda 12-ci yeri tutan komanda I Liqaya düşür. I Liqanın qalibi isə Premyer Liqaya yüksəlir. I Liqanın qalibi Premyer Liqada lisenziya şərtlərinə cavab vermirsə, həmin lisenziya şərtlərinə cavab verən və I Liqada ən yüksək yeri tutmuş komanda Premyer Liqaya yüksəlir.
Premyer Liqada lisenziya şərtlərinə cavab verməyən digər komanda və ya komandalar olarsa, onları I Liqada digər yüksək yerləri tutmuş və lisenziya şərtlərinə cavab verən komanda və ya komandalar əvəzləyir. Mövsümün sonunda Premyer Liqada 11-ci yeri tutan komanda ilə I Liqada 2-ci yeri tutan komanda Premyer Liqada oynamaq üçün pley-off oyununda üz-üzə gəlir. Pley-off bir oyundan ibarətdir və neytral meydanda keçirilir. Fors-major hallarda Premyer Liqaya yüksələn və Premyer Liqanı tərk edən komandaların sayı və tərkibi ilə bağlı yekun qərarı AFFA İcraiyyə Komitəsi verir.

5. Azərbaycan Premyer Liqasının qalibi olmuş komanda ölkəmizi UEFA Çempionlar Liqasında təmsil edir. Çempiondan

başqa daha 3 komanda avrokuboklarda iştirak etmək hüququ qazanır. İştirak üçün bu 3 yerdən 2-si çempionatdan, 1 yer isə Azərbaycan Kubokundan verilir. Azərbaycan Kubokunun qalibi ölkəmizi UEFA Avropa Liqasında, Premyer Liqada 2-ci və 3-cü yeri tutan komandalar UEFA Konfrans Liqasında təmsil edəcəklər. Kubokun qalibi həm də çempionatın nəticəsinə görə avrokuboklarda iştirak etmək hüququ qazanarsa, o zaman çempionatı 4-cü yerdə bitirmiş komanda Konfrans Liqasına vəsiqə qazanır. Ölkə çempionu həm də Azərbaycan Kubokunun qalibi olarsa, bu zaman Premyer Liqada 2-ci yeri tutan komanda Avropa Liqasında oynamaq hüququ qazanır, 3-cü və 4-cü yerlərin sahibləri isə Konfrans Liqasına vəsiqə əldə edirlər.

6. Premyer Liqada iştirak etmək hüququ qazanan I Liqa klubu tələblərə və lisenziyalaşdırma şərtlərinə tam cavab verməzsə və ya iştirak etməkdən imtina edərsə, həmin klubun əvəzinə I Liqada digər yüksək yeri tutmuş və lisenziya şərtlərinə tam cavab verən klub Premyer Liqada iştirak etmək hüququ qazanır.

7. Premyer Liqa və Azərbaycan Kuboku oyunlarında legioner futbolçuların oynadılmasına limit tətbiq olunmur. Start heyətdə eyni anda 11 əcnəbi futbolçu yer ala bilər. Oyunun protokolunda maksimum 17 əcnəbi futbolçu ola bilər. Oyunun protokolunda legioner futbolçuların sayı ilə bağlı pozuntu olarsa, məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır. Protokolda limitin izlənilməsi ilə bağlı məsuliyyət klubun üzərindədir.

8. Payız-yaz sistemi ilə keçirilən I Liqaya adları aşağıda göstərilmiş 10 komanda buraxılır:

1. “Baku Sportinq” FK
2. “Cəbrayıl” FK
3. “Difai” FK
4. “Mingəçevir” FK
5. MOİK FK
6. “Səbail” PFK
7. “Şahdağ Qusar” FK
8. “Şəfa” FK
9. “Şimal” FK
10. “Zaqatala” PFK

9. I Liqada yarış ev və səfər prinsipinə əsasən dairəvi sistemlə 3 dövrədə keçirilir və 27 turdan ibarətdir. III dövrənin oyunlarında meydan sahibi olacaq komandalar püşk əsasında

müəyyənləşdirilir. Püşkatma prosesi əlifba sırasına uyğun olaraq aparılır.

10. Mövsümün sonunda I Liqada sonuncu yeri tutan komanda II Liqaya düşür. II Liqanın qalibi isə I Liqaya yüksəlir. II Liqanın qalibi I Liqa lisenziya şərtlərinə cavab vermirsə, II Liqada lisenziya şərtlərinə cavab verən və ən yüksək yeri tutmuş klub I Liqaya yüksəlir. I Liqada lisenziya şərtlərinə cavab verməyən digər komanda və ya komandalar olarsa, onları II Liqada digər yüksək yerləri tutmuş və lisenziya şərtlərinə cavab verən komanda və ya komandalar əvəzləyir.

11. I Liqada 9-cu yeri tutmuş komanda II Liqanın 2-ci yerinin sahibi ilə I Liqaya vəsiqə uğrunda pley-off oynayır. I Liqada sonuncu olmayan klub və ya klublar lisenziya ala bilməyəcəyi təqdirdə, həm sonuncu pillənin sahibi, həm də lisenziya ala bilməyən klub və ya klublar II Liqaya düşür. Bu zaman nəzərdə tutulan pley-off oyunu keçirilmir, I Liqanı tərk edən komanda sayı qədər II Liqadan yüksək yeri tutmuş və lisenziya şərtlərinə cavab verən klub I Liqaya yüksəlir.

12. Premyer Liqa və I Liqa uğrunda pley-off 1 oyundan ibarətdir. Neytral meydanda keçiriləcək oyunun stadionunu, tarixini və təşkilatı məsələlərlə bağlı digər detalları PFL müəyyənləşdirir. Nominal meydan sahibi püşk əsasında müəyyənləşir və bütün təşkilati işləri həyata keçirir. Premyer Liqa uğrunda pley-off oyunu Premyer Liqa tələbləri əsasında, I Liqa uğrunda pley-off oyunu I Liqa tələbləri əsasında keçirilir. Oyunun əsas vaxtında qalib müəyyənləşməzsə, əlavə vaxt (hər biri 15 dəqiqədən ibarət iki hissə) təyin olunur, bu zaman da qalib müəyyənləşməzsə, penaltilər seriyası tətbiq olunur. Premyer Liqa uğrunda pley-off oyununda qalib olan komanda növbəti mövsüm Premyer Liqada oynamaq hüququ qazanır, məğlub olan komanda isə I Liqada çıxış edəcək. I Liqa uğrunda pley-offda qalib olan komanda növbəti mövsüm I Liqada oynamaq hüququ qazanır, məğlub olan komanda isə II Liqada çıxış edəcək. AFFA İntizam Komitəsi tərəfindən cəza tədbiri bütün yarışlara şamil edilən futbolçu və rəsmi şəxslər istisna olmaqla, passivində bu və ya digər səbəbdən cəzası olan futbolçu və rəsmi şəxslər pley-off oyununda iştirak edə bilərlər. Futbolçu və rəsmi şəxslərin passivində qalan cəzalar yarışların kateqoriyasına uyğun olaraq yeni mövsümə keçirilir. Pley-offda tətbiq olunan intizam tədbirləri komandanın növbəti mövsüm çıxış edəcəyi liqaya şamil

olunur. Pley-off oyununda sifariş üçün son tarixə qədər adı sifariş vərəqəsində yer alan futbolçular iştirak edə bilər. Rəsmi şəxslərlə bağlı dəyişiklik edilməsinə icazə verilir.

13. I Liqa matçlarında limit aşağıdakı kimidir:

13.1. I Liqada limit 8+3 prinsipinə uyğun olaraq müəyyənləşdirilir.

13.2. Start heyətdə (ilk 11-lik) 8 nəfər Azərbaycan vətəndaşı olan futbolçu yaş limiti olmadan iştirak edə bilər. Start heyətdə (ilk 11-lik) maksimum 3 legioner futbolçu ola bilər. Əgər komanda 11 futbolçudan az oyunçu ilə meydana çıxmaq məcburiyyətindədirsə, bu zaman legioner futbolçu limiti pozulmamalıdır.

14. Əvəzedicilər Liqasında 7+4 sistemi tətbiq olunacaq. Start heyətdə (ilk 11-lik) ən azı 7 nəfər 2004-cü il təvəllüdlü və ya daha gənc Azərbaycan vətəndaşı futbolçu yer almalıdır. 4 nəfər isə yaş limiti olmadan start heyətə (ilk 11-lik) salına bilər. Bu 4 nəfərdən maksimum ikisi legioner ola bilər. Əgər komanda 11 futbolçudan az oyunçu ilə meydana çıxmaq məcburiyyətindədirsə, bu zaman 2004-cü il təvəllüdlü və ya daha gənc futbolçu limiti pozulmamalıdır.

15. Yuxarıda qeyd olunan bütün yarışlarda əvəzetmə zamanı limit pozulmamalıdır.

16. Yarışlarda yalnız AFFA və PFL üzvləri olan, FIFA, UEFA, AFFA və PFL tələblərinə, qərarlarına, qaydalarına riayət edən, ödəmələrini vaxtında ödəyən klublar iştirak edə bilər.

17. Hansı liqada çıxış etməsindən asılı olmayaraq, bütün komandalar PFL-in tələblərini yerinə yetirməlidirlər.

18. Klublar respublika daxilində keçirəcəkləri bütün yoldaşlıq oyunları, eləcə də iştirak edəcəkləri beynəlxalq turnirlərlə bağlı PFL-ə rəsmi şəkildə məlumat verməlidirlər. Respublika daxilindəki bütün oyunların AFFA Hakimlər Komitəsinin təyin etdiyi hakimlər tərəfindən idarə olunması tövsiyə olunur.

19. Oyunlar zamanı əvəzetmələr:

19.1. Azərbaycan Premyer Liqasında, I Liqada və Əvəzedicilər Liqasında maksimum 5 futbolçunun əvəz olunmasına icazə verilir.

19.2. Oyunun ruhu nəzərə alınaraq və mümkün qədər az fasilənin olması məqsədilə bu 5 əvəzetmənin ən çoxu 3 vaxtda həyata keçirilməsinə icazə verilir. Fasilədə edilən dəyişiklik və ya dəyişikliklər bu limitə daxil deyil. Əgər hər iki komanda eyni vaxtda dəyişiklik edərsə, bu, onların hər birinin 3 dəfə dəyişiklik etmək

vaxtından çıxılacaq.

19.3. Azərbaycan Kuboku və pley-off oyunlarında əsas vaxtda maksimum 5 əvəzetməyə icazə verilir. Əgər oyun əlavə vaxta gedərsə və klublar əsas vaxtda 5 dəyişikliyin hər birini edərlərsə, o zaman əlavə 1 dəyişiklik (altıncı əvəzetmə) həyata keçirilə bilər. Oyunun əsas vaxtında 5 əvəzetmədən daha az edilibsə, o zaman istifadə olunmamış əvəzetmələr əlavə vaxta daşınır.

19.4. Azərbaycan Kuboku və pley-off qarşılaşmalarında 5 əvəzetmənin ən çoxu 3 vaxtda həyata keçirilməsinə icazə verilir. Fasilədə edilən dəyişiklik bu limitə daxil deyil. Əgər hər iki komanda eyni vaxtda dəyişiklik edərsə, bu, onların hər birinin 3 dəfə dəyişiklik etmək vaxtından çıxılacaq. Əgər oyun əlavə vaxta gedərsə və klublar əsas vaxtda 3 əvəzetmə fasiləsinin hamısından istifadə edibsə, o zaman klublar əlavə 1 əvəzetmə vaxtı (dördüncü fasilə) hüququ əldə etmiş olurlar. Fasilədə edilmiş dəyişiklik bu limitə daxil deyil.

19.5. Daşınan əvəzetmələrin sayından asılı olaraq, əlavə vaxtda əvəzetməyə görə oyunu saxlamaq sayı dəyişə bilər. Belə ki, əsas vaxtda istifadə olunmamış əvəzetmələr və əvəzetmə üçün fasilələr əlavə vaxta daşına bilər.

19.6. Bütün yarışlarda əvəzetmə sayına, vaxtına nəzarət komandaların məsuliyyətindədir. Əvəzetmə zamanı futbolçulara tətbiq olunan limit pozularsa və ya adı oyunun rəsmi protokolunda olmayan futbolçu meydana daxil olarsa, bu zaman məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

19.7. Start fitindən öncə əsas heyətdə yer alan hər hansı bir oyunçu zədə və ya digər səbəbdən oyunda iştirak edə bilmirsə, bununla bağlı klub nümayəndəsi hakimi və oyunun rəsmi nümayəndəsini, hakim və ya nümayəndə isə PFL-i məlumatlandırmalıdır. Müvafiq prosedurlardan sonra matç başlayana qədər zədə və ya gözlənilməz fiziki nasazlıq səbəbi ilə start heyət oyunçusunun əvəzlənməsinə icazə verilir. Rəqib komanda da bu məsələdən xəbərdar edildikdən sonra (əgər hadisə oyunun başlamasına 75 dəqiqə və daha az qalmış baş verərsə) futbolçunu ehtiyat oyunçulardan biri əvəz edə bilər (rəqib komanda buna etiraz edə bilməz). Dəyişiklik ediləcək komandanın nümayəndəsi matçın başlanmasından əvvəl bu dəyişiklik haqqında protokolda qeyd aparır və yeni protokol müvafiq şəxslərə təqdim

olunur. Oyundan öncə əvəz olunmuş futbolçu ehtiyat oyunçular skamyasında otura və oyunun gedişində meydana daxil ola bilməz. Klub və futbolçu bu qaydaya riayət etməzsə və həmin şəxs texniki zonada yer alarsa və ya oyunun gedişində meydana çıxarsa, məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır. Oyundan öncə olan dəyişiklik əvəzetmə limitinə təsir etmir. Əgər ehtiyatda olan futbolçu yuxarıda qeyd olunmuş səbəblərdən oynamaq iqtidarında deyilsə, prosedurlar həyata keçirildikdən sonra ehtiyatda olan oyunçu və ya oyunçular klubun sifariş ərizəsində olan digər oyunçu və ya oyunçularla əvəz oluna bilər. Əgər oyundan öncə əsas heyət oyunçusu, ehtiyat oyunçu, eləcə də rəsmi şəxs hakimin qərarı ilə qırmızı vərəqə ilə cəzalandırılarsa, o, heç bir halda oyunun protokolunda yer ala bilməz. Oyundan öncə qırmızı vərəqə alan əsas heyət oyunçusu ehtiyatda yer alan oyunçu ilə əvəzlənə bilər, bu, əvəzetmə limitinə təsir etmir, qırmızı vərəqə alan ehtiyat oyunçunun yerinə yeni oyunçu cəlb oluna bilməz.

20. Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqa yarışlarında əvəzetmə kartını və əvəzetmələr qeyd olunmuş tablonu 4-cü hakimə komandanın nümayəndəsi təqdim etməlidir.

21. Oyunöncəsi məşqin keçirilmə şərtlərini, vaxtını və müddətini müəyyənləşdirmək komandaların öz öhdələrinə buraxılır. Ehtiyac yarandığı halda qonaq komanda görüşün keçiriləcəyi meydanda oyunöncəsi məşq üçün ev sahibi komandaya və PFL-ə məktubla müraciət etməlidir. Rəsmi müraciətdən sonra əgər meydan sahibi klub qonaq komandaya oyunun keçiriləcəyi stadionda məşq etmək imkanı yaradarsa və yuxarıda sadalanan bütün prosesləri həyata keçirdikdən sonra cavab oyunundan əvvəl məşq üçün meydan ilə təmin olunmazsa, o zaman cavab oyununda meydan sahibi olan klub İntizam Məcəlləsinə uyğun olaraq cərimələnir.

22. Klublar PFL tərəfindən təsdiq olunan oyun günü planına riayət etməli və ev oyununu keçirdiyi stadionun meydan sahibi və qonaq komanda, eləcə də hakimlər və AFFA nümayəndəsi otağına onu görünən şəkildə vurmalıdır. Eyni zamanda, klublar təxliyə planını tələb olunan yerlərdə asmalıdır.

Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqada

# OYUN GÜNÜ PLANI

| | |
|---|---|
| Oyunun başlanmasına 180 dəqiqə qalmış | Meydanın xətlənib VAR tələblərinə cavab verən hala gətirilməsi |
| 150 dəqiqə qalmış | Meydanın AFFA nümayəndəsinə təhvil verilməsi |
| 120 dəqiqə qalmış | AFFA nümayəndəsinin rəhbərliyi ilə oyunun təşkilinə cavabdeh olan şəxslərin birgə iclası |
| Ən gec 75 dəqiqə qalmış | Hər iki komandanın stadiona gəlişi |
| Ən gec 75 dəqiqə qalmış | Hər iki klub oyunun protokolunu PFL-in elektron matç sistemində təsdiq edir |
| Ən gec 60 dəqiqə qalmış | Protokolun kağız formada oyun rəsmilərinə və media nümayəndələrinə verilməsi |
| 60 dəqiqə qalmış | Hava şəraitinə uyğun olaraq, meydanın 5 dəqiqədən az olmayaraq sulanması |
| Sulanma bitdikdən sonra | Komandaların və hakimlərin isinmə hərəkətləri üçün meydana sərbəst daxil olması |
| Ən gec 15 dəqiqə qalmış | Komandaların, hakimlərin paltardəyişmə otağına geri dönməsi |
| 15-10 dəqiqə qalmış | Meydanın sulanıb-sulanmayacağına meydan sahibi komanda qərar verir (2 dəqiqədən az olmayaraq) |
| 10-7 dəqiqə qalmış | Hakim komandaları meydana çıxmağa dəvət edir. Hakimin çağırış fitindən sonra ilk olaraq meydan sahibi komanda dəhlizdə düzülməlidir. |
| 6-1 dəqiqə qalmış | PFL himninin, açılış turunda və xüsusi günlərdə PFL-in tələbi ilə Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi, salamlaşma, püşkatma, yan xətt hakimlərinin qapı torlarını yoxlaması |
| 0 | Oyun başlanır |
| Fasilə | Meydanın sulanıb-sulanmayacağına meydan sahibi komanda qərar verir |

23. Hər hansı komanda üzrsüz səbəbdən matçın təyin olunduğu vaxtdan 30 dəqiqə gec stadiona gələrsə, həmin komandanın oyunda iştirak etmədiyi hesab olunur və məsələ İntizam Komitəsində müzakirəyə çıxarılır. Meydana çıxa biləcək xüsusi hallarla bağlı PFL-in İdarə Heyəti yerində və idman prinsipləri əsas götürülərək qərar qəbul edə bilər.

24. Premyer Liqada çıxış edən futbolçular əvəzedici komandanın, əvəzedici komandanın heyətində yer alan futbolçular isə əsas komandanın heyətində meydana çıxa bilərlər. Bu proses zamanı futbolçuların forma nömrələri eyni saxlanılmalıdır və Premyer Liqada oynayan əvəzedici komanda oyunçusunun adı formanın üzərində qeyd olunmalıdır. Əvəzedici komanda oyunçularının nömrələri ilə əsas komanda oyunçularının nömrələri üst-üstə düşməməlidir.

25. Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqa oyunlarına adları matçın protokolunda göstərilmiş futbolçular və rəsmi şəxslər buraxılır. Adı oyunun protokolunda qeyd olunmuş futbolçuların və rəsmi şəxslərin onlar üçün nəzərdə tutulan yerdə olması vacibdir. Cəzalı futbolçunun meydana çıxmasına, cəzalı futbolçu və rəsmi şəxsin texniki zonada, eləcə də əlavə yerlərdə oturmasına görə klubu məsuliyyət daşıyır və belə hal yaşanacağı halda, məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

26. Adları protokolda göstərilən rəsmi şəxslərin oyun zamanı texniki zonada olması vacibdir. Əgər bu məsələlərlə bağlı sui-istifadə halları olarsa (adı qeyd olunan şəxs əvəzinə digər şəxsin texniki zonada olması və bu kimi digər hallar), məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır və kluba qarşı sanksiya tətbiq oluna bilər.

27. Oyunçulara edilən xəbərdarlıqlar, tətbiq olunan diskvalifikasiyaların hesabatının aparılmasına və izlənməsinə görə məsuliyyəti klublar daşıyır.

28. Azərbaycan Kuboku uğrunda yarışda Premyer Liqa, I Liqa və II Liqa klubları tam tərkibdə iştirak etməlidir.

29. Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqa matçlarının keçirilməsi tarixi yarışların təqvimi ilə müəyyən edilir. Komandalar ardıcıl 2-dən çox ev və 2-dən çox səfər oyunu keçirə bilməzlər. Rəsmi şəkildə elan olunmuş turun və ya turların

təqviminin dəyişdirilməsi ilə bağlı müraciətlərə baxılmır.

30. Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqada oyunun protokoluna maksimum 23 futbolçu (7-dən az, 11-dən çox olmayaraq əsas heyət və ən çoxu 12 ehtiyat oyunçu) daxil edilə bilər. Əgər komanda oyunu 11 nəfərdən az oyunçu ilə başlamaq məcburiyyətində qalarsa, adı protokolda qeyd olunan oyunçu və ya oyunçular gəlib oyuna çatacağı təqdirdə meydana çıxa bilərlər.

31. Oyun zamanı 7 nəfər rəsmi şəxsə və 12 nəfər ehtiyat oyunçuya ehtiyat oyunçular skamyasında (ən azı 19 yerlik) oturmağa icazə verilir. Bundan əlavə, klubun maksimum 8 əməkdaşı əlavə yerlərdə otura bilər. Belə yerlər texniki zonadan 5 metr arxada və ya 5 metr yan tərəfdə olmalıdır (Ehtiyat oyunçular skamyası imkan verərsə, əlavə yerlərdə oturan şəxslər də texniki zonada əyləşə bilər). Texniki zonada və əlavə yerlərdə oturan müvafiq şəxslərdə (futbolçular istisnadır, ilkin tibbi yardım üçün meydana çıxan tibb personalı üçün məcburi deyil) PFL tərəfindən verilən şəkilli A buraxılışı şəxsin üzərində görünən yerdə olmalıdır. Futbolçular avtobusdan düşdükdən sonra paltardəyişmə otağına qədər A buraxılışını görünən yerdə asmalıdırlar. Yalnız paltardəyişmə otağından meydana çıxan futbolçulara istisna tətbiq olunur. A buraxılışı vəsiqəsinin tələblərini yerinə yetirməyən klubla bağlı oyunun AFFA nümayəndəsi raportunda qeyd aparır və məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

Texniki zonada və əlavə yerlərdə otura biləcək şəxslər bu qaydada müəyyən edilir: məşqçilər korpusu, tibbi personal, inzibatçı, tərcüməçi, klubun meneceri və 12 nəfərdən çox olmayaraq futbolçu heyəti. Texniki zonada eyni anda 1 nəfər göstəriş vermək üçün ayaq üstə ola bilər.

32. Hər iki komandanın ehtiyat oyunçularına yalnız meydanın onlara aid hissəsində, meydanın kənarında, künc bayrağından qapı istiqamətində və ya əlavə yerlərin yanında məşq hərəkətləri etməyə icazə verilir. Onlar xüsusi fərqləndirici üst geyimdə olmalı və sayları 6 nəfəri (5 futbolçu, 1 məşqçi) keçməməlidir (klublara isinmə hərəkətlərinin edilməsi üçün xüsusi yerlər hazırlamaq tövsiyə olunur). Məşq zamanı toplardan istifadəyə icazə verilmir. Əgər stadionda isinmə hərəkətləri üçün xüsusi yer ayrılıbsa (Tofiq Bəhrəmov adına Respublika Stadionunda olduğu

kimi), o zaman isinmə üçün limitsiz sayda şəxsin getməsinə icazə verilir. Stadionda komandaların isinmə hərəkətləri ilə bağlı məkan stadionun infrastrukturu əsasında oyunöncəsi iclasda AFFA nümayəndəsi tərəfindən hakimlər briqadası ilə məsləhətləşmələrdən sonra təyin olunur. Klublar və hakimlər bu qaydaya riayət etməlidirlər.

33. Texniki zona xüsusi nişanla – qırıq-qırıq xətlərlə ayrılmalı, ehtiyat oyunçular skamyasından 1 metr sağa və 1 metr sola, futbol meydanının yan xəttindən ən azı 1 metr aralı olan sahəni əhatə etməlidir.

34. Premyer Liqa, Əvəzedicilər Liqası, I Liqa və Azərbaycan Kuboku uğrunda yarışlar PFL tərəfindən təsdiqlənmiş və təqdim olunmuş toplarla keçirilməlidir. 2025-2026-cı illər mövsümündə Azərbaycan Premyer Liqası və Əvəzedicilər Liqası oyunlarında “Adidas Conext25 PRO” toplarından istifadə olunur. I Liqa oyunlarında “Adidas” şirkətinin təsis etdiyi “Fussballliebe” toplarından istifadə edilir. Azərbaycan Kuboku oyunları meydan sahibi komandanın mübarizə apardığı liqada istifadə etdiyi toplarla oynanılır. Səfərdə oynayan daha yuxarı liqa klubu Azərbaycan Kuboku oyunlarında öz toplarından istifadə etmək istəyərsə, hər iki klubun bununla bağlı razılıq məktubu PFL-ə təqdim olunduqdan sonra qarşılaşmada qonaq komandanın toplarından istifadə oluna bilər.

35. PFL bayrağı altında keçirilən bütün yarışlarda futbolçuların oyunöncəsi meydana çıxarmaq istədiyi pankartlar üçün mütləq PFL-in icazəsi olmalıdır. Hər hansı bir pankartın açılması, oyunöncəsi, oyun zamanı, fasilədə həyata keçiriləcək tədbirlərlə bağlı oyunun startına ən geci 5 gün qalmış PFL-ə məlumat verilməlidir. Əgər stadionda PFL ilə təsdiqlənməmiş pankart açılarsa, habelə oyunçular pankartla meydana çıxarsa və həmin pankartlarda irqi, dini, cinsi, siyasi ayrı-seçkiliyə yol verilərsə, məsələ İntizam Komitəsində müzakirəyə çıxarılacaq.

36. Klublar PFL istəyəcəyi təqdirdə təqdim olunacaq xüsusi pankartlarla meydana çıxmalıdırlar.

37. Meydan sahibi klub PFL-in təqdim edəcəyi mətni diktor vasitəsilə tələb olunan vaxtda stadionda səsləndirməlidir.

38. Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqada oyunun ən gec başlama vaxtı 21:30 müəyyən olunur.

**4. Geyim qaydaları**

1. Premyer Liqa, Əvəzedicilər Liqası və I Liqa klubları ən azı iki müxtəlif rəngdə olan formasının eskizini ən gec müvafiq liqalar üçün püşkatmadan 3 gün öncə PFL-ə təqdim etməlidir.

2. Oyundan 2 gün öncə saat 16:00-dək meydan sahibi komanda hansı rəng geyim formasında çıxış edəcəyini qonaq komandaya, PFL-ə və AFFA Hakimlər Komitəsinə elektron məktubla bildirməlidir. Bundan sonra iki saat ərzində qonaq komanda meydan sahibi komandanın geyim forması ilə üst-üstə düşməyən rəngdə olan oyun formasını PFL-ə və AFFA Hakimlər Komitəsinə elektron məktubla bildirməlidir.

3. Rəsmi müraciətlərə baxmayaraq, oyunöncəsi iclasda hər iki komandanın forma rəngləri oxşarlıq təşkil edərsə, hakimin göstərişi ilə elektron məktubda göstərdiyi ilə stadiona gətirdiyi forma üst-üstə düşməyən komanda formasını dəyişməlidir. Əgər klub bunu etmək iqtidarında deyilsə və ya komandalar arasında razılıq əldə olunmursa, oyun baş tutmamış hesab olunur və məsələ İntizam Komitəsində müzakirəyə çıxarılır. Qapıçı forması rənginə görə hər iki komanda futbolçularının və hakimlərin formasından seçilməlidir. Hər iki komandanın qapıçı formasının rəngləri eynidirsə və bunların dəyişidirilməsi mümkün deyilsə, hakim oyunun başlanmasına icazə verməlidir. Son anda oyun formasında hər hansı bir çatışmazlıq meydana çıxarsa, hakim formasında çatışmazlıq olan futbolçu və ya futbolçuları bunu aradan qaldırmaq üçün soyunub-geyinmə otağına göndərməli, futbolçusunun formasında problem yaranmış komanda oyuna az sayda oyunçu ilə başlamalı, həmin oyunçu gəldikdən və yoxlanıldıqdan sonra meydana çıxmalıdır. Əgər qapıçının formasında problem meydana çıxarsa, o zaman problem həll olunana qədər oyun başlanılmır. Oyunun, eləcə də ikinci hissənin gec başlanmasına görə səbəbkar klub cərimələnir. Komandalar oyunboyu eyni rəngli formadan istifadə etməlidirlər. Fasilədə formanın rənginin dəyişdirilməsinə icazə verilmir.

4. Premyer Liqada və Əvəzedicilər Liqasında çıxış edən klubların futbol formasında idman klubunun emblemi (hündürlük 10 sm-dan çox olmamaq şərti ilə), kürəyində nömrəsi (hündürlük 25 sm-dən, zolağın eni 3 sm-dən çox olmamaq şərti ilə), adı, soyadı və ya ləqəbi (hündürlük 8 sm-dan çox olmamaq şərti ilə) yazılmalıdır. Adların yazılışı Premyer Liqa klubları üçün məcburi, I Liqa və II Liqa,

eləcə də Əvəzedicilər Liqası iştirakçıları üçün tövsiyə xarakterlidir. Adlar Azərbaycan əlifbasından istifadə edilməklə yazılmalıdır. Adların yazılışı zamanı Azərbaycan əlifbasından başqa digər əlifbaların istifadəsinə icazə verilmir.

5. Sifariş vərəqəsində qeydiyyata alınmış futbolçu Premyer Liqa, Əvəzedicilər Liqası, I Liqa və Azərbaycan Kuboku oyunlarında eyni nömrə altında çıxış etməlidir. Oyunçu həmin nömrə ilə protokolda qeyd edilməlidir. Futbolçunun şortunun önündə hündürlüyü 15 sm-dən çox olmamaqla köynəkdəki nömrəsi ilə eyni nömrə yazılmalıdır. Zolaqlı formalarda nömrə aydın şəkildə görünməlidir. Nömrələr 1-dən 99-a qədər ola bilər.

6. Futbolçular yalnız sifariş edildikləri nömrə altında çıxış edə bilərlər. Çempionatın gedişində bir klubda eyni nömrənin müxtəlif futbolçularda kortəbii şəkildə istifadəsinə icazə verilmir. Xüsusi hallarda PFL-ə müraciət olunduqdan sonra nömrənin dəyişdirilməsi məsələsinə baxıla bilər.

7. PFL tərəfindən mövsümdən öncə klublara təqdim olunan turnir loqotipləri köynəyin sağ qolunda yerləşdirilməlidir.

8. Futbolçunun oyun formasının sağ qolundan başqa istənilən yerində klubun sponsor və tərəfdaşlarının loqotiplərinin üfüqi və şaquli olaraq yerləşdirilməsinə icazə verilir.

9. Oyun formasının üzərində yerləşdirilən reklamlar “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olmalıdır. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda reklam olunması qadağan olan məhsul və xidmətlərin formanın üzərində reklam edilməsinə icazə verilmir.

10. Oyunun hakimlərinin formalarında, AFFA ilə razılaşmaya əsasən, sponsor (tərəfdaşlar) haqqında reklam materialları yerləşdirilə bilər.

11. Oyunçuların və hakimlərin oyun zamanı istifadə etdikləri avadanlıqlar, həmçinin formaları və alt paltarları üzərində hər hansı siyasi, dini, cinsi, etnik, irqi və şəxsi çağırışlar yer alan yazılar, şəkillər yerləşdirməsi qadağandır. Bu cür hal baş verərsə, həmin şəxslərə, yaxud kluba qarşı məsələ AFFA İntizam Komitəsində gündəmə gətirilir.

**5. Yarışlardan kənarlaşdırma**

1. Klub mövsümün gedişində AFFA İntizam Komitəsinin qərarı ilə aşağıdakı hallarda yarışlardan kənarlaşdırıla bilər:

- Klub tərəfindən sistematik olaraq AFFA və PFL qərarları və mövcud Əsasnamənin qaydalarının pozulması;
- Komandanın matça 2 dəfə gəlməməsi (cari Liqa yarışı və Azərbaycan Kuboku daxildir);
- Oyunun iştirakçılarına birbaşa və ya dolayısı ilə təsir etmək. Oyunun nəticələrinə təsir etmək üçün rüşvət verməyə cəhd etmək və ya rüşvət vermək.

2. Çempionatdan xaric olunmuş komanda liqa oyunlarının yarısından azını keçiribsə, onun oyunlarında qeydə alınmış nəticələr ləğv edilir, komandanın əvvəlcədən təsdiqlənmiş təqvim üzrə nəzərdə tutulmuş növbəti oyunlarında rəqib komandalar istirahət edir və hər hansı xal hesablanmır. Çempionatdan xaric olunmuş komanda liqa oyunlarının yarısı və ya yarısından daha çoxunu keçiribsə, qalan oyunlar üçün təqvim boyunca rəqib komandalara texniki qələbə (3:0) hesablanır. Hər iki halda liqadan uzaqlaşdırılmış komandanın keçirdiyi oyunlarda vurulmuş qollar futbolçuların, tətbiq olunan sanksiyalar futbolçu və rəsmi şəxslərin aktivində qalır. Premyer Liqa, Azərbaycan Kuboku, I Liqa və II Liqadan kənarlaşdırılmış komanda 3 mövsüm ərzində PFL-in bayrağı altında keçirilən heç bir yarışa buraxılmır. Əvəzedici komandası iki dəfə oyuna gəlməyən klubun əvəzedici komandası yarışdan kənarlaşdırılır. Yarışdan kənarlaşdırma halı əvəzedici komandaya tətbiq olunmaqla yanaşı, eyni zamanda klubun əsas komandasına sanksiya tətbiq olunması ilə bağlı AFFA İntizam Komitəsində qarşısında məsələ qaldırılır.

3. Bu və ya digər səbəbdən kluba texniki məğlubiyyət verilərsə və bu zaman hesab arasındakı fərq texniki qələbə alan tərəfin lehinə 3 top və ya daha çoxdursa, hesab olduğu kimi saxlanılır. Qollar turnir cədvəlində nəzərə alınır. Futbolçuların vurduğu qollar aktivində saxlanılır, tətbiq olunan intizam qaydaları qüvvədə saxlanılır. Əgər bu və ya digər səbəbdən texniki məğlubiyyət qeydə alınarsa və bu zaman hesab arasındakı fərq 3 topdan azdırsa, qaydaları pozan kluba 0:3 hesablı texniki məğlubiyyət verilir. Futbolçuların vurduğu qollar aktivində saxlanılır, tətbiq olunan intizam qaydaları qüvvədə saxlanılır.

Klub oyuna gəlmədiyinə görə 0:3 hesablı texniki məğlubiyyət

alarsa, bu zaman  nəzərdə tutulan, amma baş tutmayan oyunda səbəbkar komandanın cəza səbəbindən iştirak etməyəcək futbolçularının, məşqçilərinin, klub rəsmilərinin cəzası növbəti oyun və ya oyunlar üçün də keçərli olaraq saxlanılır. Günahkar olmayan komandanın futbolçularının, məşqçilərinin, eləcə də digər əməkdaşlarının cəzaları isə texniki nəticənin qeydə alındığı oyunda çəkilmiş kimi hesablanır.

4. Milli komandalara dəvət olunan futbolçuların xaricə getmələri üçün sənədləri vaxtında təqdim etməyən, yaxud üzrlü səbəb olmadan onların yığma komandaların sərəncamına vaxtında gəlməsini təmin etməyən kluba qarşı sanksiyalar tətbiq olunur. Gəlməkdən imtina edən futbolçu isə İntizam Məcəlləsinə uyğun olaraq cəzalandırılır.

5. Hər hansısa qayda pozuntusu heç kim tərəfindən görülməyibsə (rüşvət və rüşvət verməyə cəhd etmək, oyun alqı-satqısı və ya ona cəhd halları istisnadır) və bu hadisə sonradan ortaya çıxarsa, problemin gündəmə gətirilməsi hadisə baş verən andan 10 gün müddətində mümkündür.

**6. Oyunların vaxtının dəyişdirilməsi və təxirə salınması**

1. Klubların rəsmi oyunları arasında ən azı 48 saat müddət olmalıdır. Bu müddət əvvəlki oyunun başa çatmasından növbəti oyunun başlanmasına qədər hesablanır.

2. PFL nəzərdə tutulan ehtiyat günləri də daxil olmaqla, matçı başqa bir vaxta təxirə salmağa aşağıdakı hallarda icazə verir:

- Çempionatın təqviminə dəyişiklik edilərsə;
- Komandanın avrokuboklardakı çıxışı zamanı.

Avrokuboklarda iştirak edən klublar dəyişikliklə bağlı ən geci 1 həftə öncə PFL-ə rəsmi müraciət etməlidirlər. Avrokubok iştirakçıları oyunlarının vaxtını tur çərçivəsində 1 gün dəyişdirməklə bağlı PFL-ə müraciət etmək imkanına malikdirlər və müraciətdən sonra PFL tərəfindən məsələyə baxıla bilər. Rəqib komandanın verilmiş qərara etiraz etmək hüququ yoxdur. Avrokuboklarda 4-cü təsnifat mərhələsində (pley-off) iştirak edən klub oyununun 1 dəfə təxirə salınması üçün müraciət edə bilər. Liqa mərhələsindən sonrakı pley-off mərhələlərində də klubun bununla bağlı hər mərhələdə 1 dəfə olmaqla müraciət etməsi mümkündür. Bu iki halda rəqib komandanın razılığı olmalıdır.

- Əlverişsiz hava şəraiti zamanı.

3. Yuxarıda qeyd olunanlar istisna olmaqla, PFL tərəfindən klubların müraciətlərinə baxılmır.

**7. Oyunun protokolunun tərtib olunması**

1. 2025-2026-cı illər mövsümündə Premyer Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və I Liqada PFL-in Qeydiyyat və Oyunların İdarəolunması Sistemi tətbiq olunur.

2. Elektron protokollarda baş verə biləcək problem ehtimalını nəzərə alaraq, klublar və hakimlər hər oyun protokolun kağız versiyasını stadiona gətirməlidir.

3. Matçın ilkin protokolunun oyunun təşkili ilə bağlı cavabdeh şəxslərə və mətbuat nümayəndələrinə paylanmasına meydan sahibi klub cavabdehdir.

4. Oyunun elektron protokolu matç bitdikdən ən geci 30 dəqiqə sonra hakim tərəfindən doldurulmalıdır. Elektron protokolda hər hansı bir problem yaranarsa və kağız versiyadan istifadə olunarsa, oyunun ilkin və yekun protokolunu hakim elektron formada PFL-ə göndərməli və göndərdikdən sonra AFFA nümayəndəsinə təqdim etməlidir.

5. Hər iki formada - həm elektron, həm də kağız formada olan protokolun təsdiqlənməsinə əmin olmaq üçün baş hakim oyundan sonra stadionu tərk etmədən PFL ilə əlaqə saxlamalıdır.

**8. Qaliblərin müəyyən olunması**

1. Premyer Liqa, Əvəzedicilər Liqası və I Liqada komandaların tutduqları yerlər mövsümün sonunda toplanmış xallara görə müəyyən edilir. Qələbəyə görə 3 xal, heç-heçəyə görə 1 xal verilir, məğlubiyyətə görə xal verilmir. Çempionatın startından əvvəl komandaların sıralanması əlifba sırasına uyğun olur.

2. Mövsümün gedişində və mövsümün sonunda Premyer Liqa, Əvəzedicilər Liqası və I Liqada iki və daha artıq komandanın topladığı xalların sayı bərabər olarsa, daha üst sırada qərarlaşan komanda aşağıdakı göstəricilərə müvafiq olaraq müəyyən edilir:

- Ümumi qazanılan qələbələrin sayı;
- Bütün oyunlarda vurulan və buraxılan topların fərqi;
- Bütün oyunlarda vurulan qolların ümumi sayı;
- Komandaların öz aralarında keçirdikləri oyunların nəticələri

(toplanan xallar);

- Komandaların öz aralarında keçirdikləri oyunlarda top fərqi (səfər qolu nəzərə alınmır);

- Ən az rəsmi xəbərdarlıq (sarı və qırmızı vərəqələr). Burada sarı vərəqə 1 xal, 2 sarı vərəqəyə görə qırmızı vərəqə 2 xal, birbaşa qırmızı vərəqə 3 xal olaraq qiymətləndirilir. Komandaların mövsüm ərzində həm futbolçularının, həm də rəsmi şəxslərinin aldıqları vərəqələr hesablanır. Yekun xalı daha aşağı olan komanda üstünlük qazanır.

- Püşkatmanın nəticəsinə görə.

3. Azərbaycan Kubokunda püşkatma liqalarda son mövsümün yekun turnir cədvəlinə görə aparılır. Kubokun son qalibi avtomatik olaraq 1-ci səbətdə yer alır.

4. 1/4 final mərhələsinə qədər mərhələ bir oyundan ibarətdir və adı turnir torunun yuxarısında göstərilən komanda ev sahibi kimi çıxış edir. Əsas vaxtda qalib müəyyən olunmazsa, əlavə vaxt (hər biri 15 dəqiqə olan iki hissə) təyin edilir. Əlavə vaxt ərzində də qalib müəyyən olunmazsa, 11 metrlik zərbələr seriyası təyin olunur.

5. Kubokun 1/4 final mərhələsindən başlayaraq qalib iki oyunun nəticəsinə əsasən (final oyunu istisnadır) müəyyənləşir. Hər iki oyunun nəticəsinə görə vurulan və buraxılan toplar əsas vaxtda eyni sayda olarsa, o zaman səfər qolu nəzərə alınmadan 15 dəqiqədən ibarət iki əlavə hissə təyin olunur. Əlavə vaxtda da qalib müəyyənləşməzsə, 11 metrlik zərbələr seriyası təyin olunur və qalib bu yolla müəyyənləşir.

6. İlk oyunun nəticəsindən asılı olmayaraq, ikinci oyunda iştirakdan imtina edən və ya üzrlü səbəb olmadan oyuna gəlməyən komandaya texniki məğlubiyyət verilir və o yarışdan kənarlaşdırılır.

7. Final qarşılaşması 1 oyundan ibarətdir. Final oyununun əsas vaxtında qalib müəyyənləşməzsə, 15 dəqiqədən ibarət iki əlavə hissə təyin olunur. Əlavə vaxtda da qalib müəyyənləşməzsə, 11 metrlik zərbələr seriyası təyin olunur və qalib bu yolla müəyyənləşir.

8. Azərbaycan Kubokunun final oyununun yerini PFL müəyyənləşdirir. Azərbaycan Kubokunun final oyunu üçün nominal meydan sahibi püşklə müəyyən edilir. Final oyunu üçün bütün təşkilati məsələlər, həmçinin stadionun reklam bannerləri və tribunaların azarkeşlər üçün bölünməsi, bilet satışı, eləcə də final

oyunu üçün digər detallar PFL-in səlahiyyətindədir. Nominal meydan sahibi, eləcə də qonaq komanda PFL tərəfindən verilən bütün təlimatları yerinə yetirməyi öhdəsinə götürür.

**9. Yarışların yeri və təşkilati məsələlər**

1. Çempionat başlamazdan ən azı 1 ay öncə PFL bayrağı altında keçirilən bütün turnirlərin iştirakçı klubları ev oyunlarını keçirəcəkləri stadionun adlarını və varsa, ehtiyat stadionunu rəsmi şəkildə PFL-ə təqdim etməlidirlər. Əvəzedici komandaların əsas komandanın ev oyunlarını keçirdiyi stadionda çıxış etməsi tövsiyə olunur. Klub rəsmi şəkildə bildiriş göndərdikdən sonra PFL nümayəndələri stadiona baxış keçirir. Hər hansı bir problem aşkarlanmazsa, kluba ev oyununu həmin stadionda keçirmək icazəsi verilir. Əsas stadion tələblərə uyğun gəlmirsə, ehtiyat stadiona baxış keçirilir. Hər iki stadion tələblərə uyğun gəlmirsə, kluba çatışmazlıqları aradan qaldırmaq üçün çempionatın başlanmasına 2 həftə qalana qədər vaxt verilir. Bu zaman bitdikdən sonra da problemlər aradan qaldırılmazsa, kluba həmin stadionlarda ev oyununu keçirmək qadağası qoyulur və kriteriyalara cavab verəcək yeni stadion tapması üçün 1 həftə vaxt verilir. Klub bu 1 həftədə yeni stadion müəyyənləşdirməzsə, onun ev oyunlarını keçirəcəyi stadionu PFL açıqlayır. Ev oyunlarını keçirəcəyi stadionun kirayə haqqı klub tərəfindən ödənilir. Klubun əvvəlcədən təqdim etdiyi stadionlardakı çatışmazlıqlar aradan qaldırılana qədər klub ev oyunlarını PFL tərəfindən təyin olunan stadionda keçirir. UEFA-nın qaydalarına əsasən, klubların ev oyunlarını keçirdikləri stadionların təhlükəsizlik sertifikatının olması tövsiyə edilir. Sertifikat dövlət orqanlarının (Fövqəladə Hallar Nazirliyi) baxışından sonra verilir. Stadionun təhlükəsizlik sertifikatında yanğın təhlükəsizliyi, ilk tibbi yardımın göstərilməsi imkanları, təxliyə planı, tribunaların, işıqlandırma sisteminin dayanıqlılığı kimi məsələlər əks olunmalıdır. PFL-in tövsiyəsinə riayət edilmədiyi halda, meydana gələ biləcək bütün problemlərə görə klub cavabdehdir.

2. Mövsümün gedişində fors-major hallar meydana gələrsə (qazonun vəziyyəti pisləşərsə, oyunun keçirilməsi üçün ciddi əngəllər yaranarsa), PFL tərəfindən stadionda oyun keçirilməsinə qadağa qoyula bilər. Bu zaman aşağıdakılar tətbiq olunur:

- Klubun PFL-ə və AFFA Klubların Lisenziyalaşdırılması Departamentinə lisenziya almaq üçün təqdim etdiyi əsas stadionda

PFL-in təftişinə əsasən problem yarandığı aşkarlanarsa, kluba təqdim etdiyi ehtiyat stadionda (varsa) oyun keçirmək icazəsi verilir;

- PFL-in təftişinə əsasən, klubun təqdim etdiyi ehtiyat stadionda da fors-major hal meydana gəldiyi aşkarlanarsa, klubun mövsüm ərzində PFL tərəfindən qəbul olunmuş müvafiq liqa stadionlarında oynamasına icazə verilir;

- Klub ehtiyat stadion sifariş etməyibsə və mövcud stadionda problem yaşanırsa, müvafiq liqa stadionlarında oyun keçirməsinə icazə verilir. Stadion, eləcə də stadionun sayı ilə bağlı yekun qərarı PFL verir.

Təqdim olunan stadionlarda mövsümün gedişində problem yarandığı təqdirdə, klub oyunlarını PFL-in təsdiq etdiyi digər stadionlarda keçirmək üçün ən geci 7 gün öncə PFL-ə yazılı müraciət etməlidir. Yalnız müvafiq qərardan sonra matç PFL tərəfindən qəbul edilmiş digər stadionlarda keçirilə bilər. Stadionla bağlı xərcləri meydan sahibi qarşılayır.

3. Meydan sahibi klub oyunun bütün təhlükəsizliyini öz öhdəsinə götürür və bununla bağlı məsuliyyət daşıyır.

4. Meydan sahibi klub oyunların keçirilməsi üçün aşağıdakıları təmin etməyi öhdəsinə götürür:

- Premyer Liqa və Azərbaycan Kubokunda 1/4 final mərhələsindən etibarən minimum tutumu 1 300 (bir min üç yüz), Əvəzedicilər Liqasında və I Liqada tutumu minimum 200 (iki yüz) fərdi oturacaqdan ibarət tribunalı stadion.

- Azərbaycan Kubokunun II təsnifat mərhələsindən etibarən oyunlar Premyer Liqa və I Liqa üçün sifariş olunmuş stadionlarda keçirilməlidir (II Liqa klublarının standartlara cavab verən və PFL tərəfindən son təftişdən sonra kubok oyunlarının keçirilməsi üçün məqbul sayılan stadionları istisnadır). Xüsusən də I Liqa klublarının sifariş etdiyi stadionlarda II təsnifat, 1/8 final, 1/4 final və yarımfinal mərhələsinin oyunlarının keçirilib-keçirilməyəcəyinə PFL püşkatmadan öncə, eləcə də mərhələdən öncə qərar verə bilər. Püşk əsasında meydan sahibi olan komandanın stadionu PFL tərəfindən kubok oyununu qəbul etməyə yararsız hesab edilərsə, əvvəlcə meydan sahibi komandaya standartlara cavab verən stadion təmin etmək imkanı yaradılır. Təyin olunmuş vaxtda stadion təqdim olunmazsa və qonaq komandanın stadionu standartlara cavab verərsə, oyun qonaq komandanın meydanında keçirilir. Hər

iki komandanın stadionu standartlara cavab vermirsə, oyunun keçirildiyi stadion PFL tərəfindən müəyyənləşdirilir və xərclər meydan sahibi komanda tərəfindən ödənilir.

- Beynəlxalq standartlara cavab verən futbol meydanının bütün tərəflərində mövcud qaydalara uyğun maneələr quraşdırılması;
- Stadionun qazonunda otun hündürlüyünün 22 mm-dən az, 30 mm-dən çox olmamasını təmin etmək;
- Oyunçular üçün kifayət qədər rahat, ən azı 25 (iyirmi beş) nəfər üçün oturacaq, mebel – stol, stul, masaj çarpayısı, asılqan, güzgü, taktiki analiz üçün lövhə, isti suyu olan duşlarla, tualetlə təchiz olunmuş paltardəyişmə otağının təmin olunması;
- Hakimlər üçün isti suyu olan duş, tualet, futbol meydanının maketi, 2 ədəd əvəzetmə tablosu, oyun günü proqramı, internet və kompüterlə, eləcə də sərinləşdirici içkilər, çay, su və yüngül yeməklə təchiz edilmiş xüsusi otaq. Hakimlər otağına ancaq hakim-inspektor və AFFA nümayəndəsi daxil ola bilər. Hakimlərin dəvət etdiyi şəxslərlə görüşü AFFA nümayəndəsi üçün ayrılmış otaqda baş tutacaq.
- Oyunun protokolunu tərtib etmək üçün internetlə təchiz olunmuş otaq;
- AFFA nümayəndəsi və hakim-inspektor üçün oyun günü proqramı, internetlə, eləcə də sərinləşdirici içkilər, çay, su və yüngül yeməklə təchiz edilmiş xüsusi otaq;
- İnternetlə təmin olunmuş ən azı 20 nəfərlik mətbuat konfransı otağı;
- Oyunun şərhçisi üçün yer;
- Stadionda məlumatın verilməsini təmin etmək. Diktor oyundan öncə, oyun zamanı, oyundan sonra ancaq informasiya xarakterli məlumatlar verə bilər: oyundan əvvəl heyətlərin açıqlanması və ya PFL tərəfindən verilmiş mətnin oxunması, oyun zamanı əvəzetmələr, sarı və qırmızı vərəqələrin qeyd olunması, AFFA nümayəndəsinin tələbi ilə hər hansısa bir çağırışın edilməsi, oyundan sonra növbəti görüşlərlə bağlı məlumatın verilməsi. Diktor heyətləri start fitinə qədər bildirməlidir. Diktorun rəqib komandanın ünvanına hansısa qıcıqlandırıcı sözlər söyləməsi qadağandır. Oyunun gedişində azarkeşlər AFFA, PFL, klub rəhbərlərinin, futbolçuların, hakimlərin, rəqib komanda üzvlərinin və digər rəsmi şəxslərin ünvanına kütləvi şəkildə vulqar ifadələrin yer aldığı

şüarlardan istifadə edərlərsə, diktor AFFA nümayəndəsinin tələbi ilə bununla bağlı qarşılıqlı hörmət çağırışı etməlidir. Məsələ AFFA nümayəndəsinin raportunda qeyd olunacaq və İntizam Komitəsi tərəfindən müzakirəyə çıxarılaraq tədbirlər görüləcək;

- Qonaq komanda rəsmiləri üçün 1 ədəd tam "skybox", minimum 10 ədəd VIP yer və minimum 20 ədəd tribunada yer.
- AFFA İcraiyyə Komitəsi üzvləri üçün "skybox", PFL əməkdaşları üçün 1 ədəd tam "skybox" otağı. "Skybox"a daxil olacaq şəxsləri PFL müəyyənləşdirir. Bu biletlər ən geci oyundan 3 gün öncə PFL-ə təqdim olunmalıdır;
- AFFA nümayəndəsi və hakim-inspektor üçün "skybox" yerləri təmin olunmalıdır. Bu yerlərdən stadion tam şəkildə görünməli, yer xüsusi nişanla ayrılmalı və oyunun rəsmi nümayəndələrinin (AFFA nümayəndəsi və hakim-inspektorun) iş şəraiti tam təmin olunmalıdır. Bu yerlər mərkəzi tribunada olmalıdır.
- Oyunun videoyazısını aparan PFL-in və hər iki komandanın operatorları üçün xüsusi yer. PFL operatorları tərəfindən lentə alınan çəkilişlər mübahisəli məsələlərinin həlli üçün əsas vasitədir. Çəkilişlər eyni zamanda, rəsmi müraciət olacağı təqdirdə, AFFA İntizam Komitəsinə, AFFA Hakimlər Komitəsinə, klublara və digər müvafiq orqanlara təqdim oluna bilər. Əgər stadion infrastrukturu qeyd olunan kameraların hər birinin çəkilişi üçün yetərli deyilsə, bu zaman bütün məqamlar nəzərə alınaraq PFL operatoruna üstünlük verilir, öz növbəsində PFL də klubları oyundan sonra videoyazı ilə təmin edir.
- Ehtiyat hakim üçün yer;
- İnternet, elektrik cərəyanı ilə təmin olunmuş ən azı 20 nəfərlik mətbuat sektoru;
- Fiziki məhdudiyyətli, həmçinin əlil arabalarında olanlar və onları müşahidə edənlər üçün ən az 10 nəfərlik yer;
- İşlək vəziyyətdə hesab tablosu (I Liqada və Əvəzedicilər Liqasında məcburi deyil);
- Zəruri avadanlıqla təmin olunmuş tibb otağı. Bu otaq stadion ərazisində olan hər kəsə xidmət edə bilər. Əgər stadion ərazisində olan hər hansı bir şəxs ilkin tibbi yardıma ehtiyac duyarsa, AFFA nümayəndəsi yerli komandanın həkiminə və ya təcili tibbi yardım xidmətinin həkiminə müraciət etməlidir. Həkim otağında ayrıca həkimin xidmət aparması məcburi deyil.
- Azı 8 nəfərdən ibarət yaşı 12-dən az olmayan topdaşıyan

şəxslər (onlar oyunun başlanmasına ən azı 30 dəqiqə qalmış stadionda olmalıdırlar). Onlar komandaların paltarlarının rəngindən fərqlənən vahid forma geyinməlidirlər. Topdaşıyanlar oyunboyu təmin olunmalıdır və matç bitiminə qədər fərqləndirici geyimlər onların üzərində olmalıdır. Qapıların arxasında dayanan topdaşıyanlar təhlükəsizlik məqsədilə qapı torunun arxasında yer almalıdırlar. Topdaşıyanlar fasilədə və oyun bitdikdən sonra meydana daxil ola bilməzlər.

- 2 ədəd sanitar xərək və yaşı 16-dan yuxarı 8 nəfərdən (Əvəzedicilər Liqası və I Liqada 4 nəfərdən) ibarət xərəkdaşıyan şəxslər (onlar oyunun başlanmasına ən azı 30 dəqiqə qalmış stadionda olmalıdırlar). Onlar komandaların paltarlarının rəngindən fərqlənən vahid forma geyinməlidirlər;

- Standartlara uyğun ən azı 1 ehtiyat qapı (əsas və ehtiyat qapıların ölçüləri beynəlxalq standartlara uyğun olmalıdır - 7,32x2,44). Ehtiyat qapının torla təmin olunması məcburi deyil. İstənilən növ qapılar yerə möhkəm şəkildə birləşdirilməlidir.

- Standarta və hava şəraitinə uyğun 8 futbol topu. Oyundan öncə topun dairə boyu uzunluğu 68 sm-dən az, 70 sm-dən çox olmamalıdır. Oyun başlama anında topun ağırlğı 410 qramdan az, 450 qramdan çox olmamalıdır. AFFA nümayəndəsi və hakimin tələbi ilə hava şəraitinə uyğun olaraq qırmızı və ya narıncı toplardan istifadə oluna bilər. Narıncı və ya qırmızı rəngdə olan topların təmin olunmasına meydan sahibi klub cavabdehdir. Bu tip topların üzərində FIFA tərəfindən təsdiq nişanı olmalıdır.

- Azərbaycan Respublikasının Dövlət Bayrağı, AFFA, PFL, “Respect” bayrağı, meydan sahibi klubun bayrağı (sonuncu məcburi deyil);

- Oyundan öncə, oyun vaxtı, oyundan sonra hakimlər briqadasının təhlükəsizliyini təmin etmək;

- Hakim-inspektoru oyunun videoyazısı ilə təmin etmək. Video DVD formatda (disk və ya USB yaddaş kartında) olmalıdır. Hər hansı problem meydana çıxacağı təqdirdə video oyunun ertəsi gün saat 10:00-dək elektron poçt vasitəsi ilə hakim-inspektora göndərilməldir.

- Oyunun rəsmi başlanma tarixindən ən geci 48 saat öncə tələb olunarsa, müvafiq məbləğ qarşılığında qonaq komanda azarkeşləri üçün stadionun tutumunun 20%-i qədər bilet ayırmaq. Klublar qonaq azarkeşlər üçün nəzərdə tutulan sektoru çempionatın

startından bir ay öncə PFL-ə təqdim etməli və bu sektor mövsümboyu sabit qalmalıdır. Qonaq komanda azarkeşləri üçün nəzərdə tutulan sektor təhlükəsizlik baxımından uyğun ərazidə yer almalı, digər sektorlardan ayrılmalı və xüsusi qorunmalıdır. Qonaq azarkeşlərin Əsasnamə ilə qeyd olunmuş vaxtdan etibarən stadiona buraxılması və qeyd olunan tribunada yerləşdirilməsinə meydan sahibi klub cavabdehdir. Mövsümün gedişində bu Əsasnamədə qeyd olunan hallar çərçivəsində komandanın ev oyunlarını keçirdiyi stadion dəyişərsə, bu məqamlarla bağlı yenidən məlumat verilməlidir. Qonaq komandanın azarkeşləri üçün biletin qiyməti ev komandasının azarkeşləri üçün olan bilet qiymətindən baha ola bilməz. Qonaq komanda azarkeşləri ilə bağlı qaydaların izlənilməməsi halları AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır. Qonaq komanda azarkeşlərinin stadiona girişinə süni şəkildə problem yaradılması və bu səbəbdən oyunun startına qədər qonaq azarkeşlərin tribunada yer ala bilməməsi halı ilə bağlı AFFA nümayəndəsi oyunun başlanmamasını meydan sahibinin səhvi kimi qeyd edib, oyunu gec başlatmaq iqtidarındadır. Əgər problem 30 dəqiqə ərzində aradan qaldırılmazsa, oyun baş tutmamış hesab edilir və məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

- Oyunların keçiriləcəyi stadionlarda avtomobillərin yerləşdirilməsi üçün dayanacaqla təmin etmək (dayanacağın sahəsi minimum 2 avtobus və 20 minik avtomobilinin yerləşməsi üçün yetərli olmalıdır). PFL tərəfindən verilmiş mövsümlük maşın buraxılışları olan avtomobillər maneəsiz stadionun dayanacaq ərazisinə buraxılmalıdır. Klublar mövsümdən öncə PFL-in təftişi zamanı dayanacaq ərazisini təsdiqləməlidirlər.

- Meydan sahibi komanda stadionun reklam lövhələrinin reklamla təchiz olunmasına cavabdehdir. Reklam lövhələrinin 25%-i PFL-ə məxsusdur. PFL tərəfindən göndərilən istənilən banner stadionda reklam yerinə vurulmalıdır. Bundan imtina edən klubun məsələsinə İntizam Komitəsində baxılacaq. PFL tərəfindən təqdim olunacaq banner yayım aparan şirkətin kameraları ilə üzbəüz olmalı, eləcə də qapı xəttinə paralel olan lövhələrə vurulmalıdır.

- Stadionun reklam lövhələrində yerləşdirilən reklamlar “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olmalıdır. “Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda reklam olunması qadağan olan məhsul və xidmətlərin stadionun reklam lövhələrində reklam edilməsinə

icazə verilmir.

- Meydan sahibi klub polis, zəruri avadanlıqlarla təchiz olunmuş təcili tibbi yardım maşını, yanğınsöndürmə maşını və briqadası təmin etməlidir. I Liqada və Əvəzedicilər Liqasında yanğınsöndürən maşın məcburi olmadığından meydan sahibi klub yanğından mühafizə üzrə şərtləri yerinə yetirməlidir. Belə ki, stadionda yanğınsöndürmə lövhələri və qutuları hazır vəziyyətdə olmalıdır.

- Meydan sahibi klub hava şəraiti ilə bağlı yaranmış və hakimin fikrincə, oyunun keçirilməsinə maneə yarada biləcək halları aradan qaldırmaq üçün bütün lazımi tədbirləri həyata keçirməlidir. Bütün cəhdlərə baxmayaraq, hakimin fikrincə, oyunun keçirilməsi üçün uyğun şərait yaradılması mümkün olmazsa, oyunun taleyi ilə bağlı yekun qərarı idman prinsiplərini rəhbər tutaraq PFL İdarə Heyəti qəbul edir. Oyunun baş hakimi və AFFA nümayəndəsi bununla bağlı öz raportunda qeyd aparır, məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

5. Oyundan öncə, oyun zamanı, oyundan sonra stadion ərazisində təhlükəsizlik Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən təmin olunur. Bu səbəbdən oyundan öncə, oyun zamanı, oyundan sonra stadionların soyunub-geyinmə otaqlarında, dəhlizdə, hakimlər otağının ətrafında, texniki zonada klubun mühafizəçilərinin iştirakı qadağandır (klub tərəfindən təhlükəsizlik meneceri kimi təqdim edilən şəxsə “Zona-1” vəsiqəsinin verilməsi PFL tərəfindən müzakirə oluna bilər). Əgər polis əməkdaşları, Təcili Tibbi Yardım və Dövlət Yanğından Mühafizə Xidmətinin (sonuncu I Liqa və Əvəzedicilər Liqasının oyunlarına şamil olunmur, Azərbaycan Kubokunda 1/4 final mərhələsindən etibarən təmin olunmalıdır. Eyni zamanda, fors-major hallarda Premyer Liqa oyunları üçün stadionda yanğın lövhələri və qutuları mövcuddursa, oyun başlaya bilər) əməkdaşları xidməti maşınlarla oyunun təyin olunmuş vaxtına qədər stadiona gəlməzsə, o zaman AFFA nümayəndəsi oyunun başlamasına icazə verməməlidir. Bu zaman çatışmazlıqların aradan qaldırılması üçün 45 dəqiqə vaxt verilir (komandaların isinmə hərəkətləri üçün hakim tərəfindən müəyyənləşdirilən vaxt 45 dəqiqəlik müddətə daxil deyil). Əgər bu müddət ərzində də problem aradan qaldırılmazsa, oyun baş tutmamış hesab olunur və məsələ AFFA İntizam Komitəsində

müzakirəyə çıxarılır.

6. Oyunun keçirilməsi üçün vacib olan şəxslər oyundan öncə keçirilən iclasda iştirak etməli və oyunun startına ən azı 60 dəqiqə qalmış stadionda olmalıdırlar.

7. Oyundan 2 saat öncə AFFA nümayəndəsinin rəhbərliyi ilə keçirilən iclasda aşağıdakı şəxslər iştirak edir:

- Meydan sahibi komandanın nümayəndəsi (AFFA Klubların Lisenziyalaşdırması Departamentində əsas kontakt şəxs kimi qeydiyyatdan keçən şəxs);
- Qonaq komandanın nümayəndəsi (AFFA Klubların Lisenziyalaşdırması Departamentində əsas kontakt şəxs kimi qeydiyyatdan keçən şəxs);
- Meydan sahibi komandanın təhlükəsizlik xidmətinin əməkdaşı;
- Stadion nümayəndəsi;
- Polis əməkdaşı;
- Təcili tibbi yardım nümayəndəsi (iclas vaxtı ərazidədirsə);
- FHN (yanğınsöndürən) nümayəndəsi (I Liqa və Əvəzedicilər Liqasının oyunlarına şamil olunmur);
- AFFA Klubların Lisenziyalaşdırması Departamentində meydan sahibi klubun azarkeşlərlə əlaqələndirici şəxs olaraq qeydiyyatdan keçən nümayəndəsi (məcburi deyil).

AFFA nümayəndəsinin tələbi ilə iclasa əlavə şəxslər dəvət oluna bilər. Klublar tərəfindən qeyd olunmuş əsas kontakt şəxslərin iclasda iştirakı fiziki olaraq mümkün deyilsə, klub bununla bağlı əvvəlcədən PFL-i məlumatlandırmalıdır.

8. Oyun zamanı (fasilə istisna olmaqla) stadiondakı süni səs-küyün qarşısı alınmalıdır. Qol zamanı musiqi səslənərsə, bu, hakimin oyunu bərpa edən fitinə qədər dayandırılmalıdır. Oyunun gedişində xüsusi səsgücləndirici ilə azarkeşlərin səsinin stadionda verilməsi qadağan olunur.

9. Oyunun canlı yayımı təkrarların və mübahisəli epizodların göstərilməməsi şərti ilə stadiondakı monitorda yayımlana bilər.

10. Qonaq komanda bütün səfər xərclərini özü təmin edir.

11. Qəbul edən komanda qonaq komandanın, eləcə də oyunun təşkilinə cavabdeh olan şəxslərin (AFFA nümayəndəsi, PFL nümayəndəsi, hakimlər və bu kimi digər şəxslər) təhlükəsizliyinə görə cavabdehdir.

12. Əgər stadionda oyun bitdikdən sonra hər hansı bir tədbir

varsa və bunun üçün süni işıqlandırmaya ehtiyac duyularsa, stadionun işıqları tədbirin başa çatmasınadək işlək vəziyyətdə qalmalıdır.

13. Meydan sahibi klub oyundan 1 saat öncədən stadionda tədbir başa çatana qədər sanitar qovşaqların açıq olmasını təmin etməlidir.

14. Meydan sahibi klub hakimlərin, hakim-inspektor, AFFA nümayəndəsi və digər şəxslərin, eləcə də qonaq komandanın stadiondan təhlükəsiz şəkildə çıxışını təmin etməlidir.

15. Meydan sahibi klub ehtiyac yaranacağı təqdirdə hakimləri, hakim-inspektoru və AFFA nümayəndəsini vağzala qədər nəqliyyatla təmin etməlidir (öz hesabına).

16. Əgər oyundan öncə, oyun zamanı, oyundan sonra stadionda, ona bitişik ərazilərdə azarkeşlər, futbolçular, klub rəsmiləri arasında hər hansı bir kütləvi insident baş verərsə, asayişi qoruyan polis nəfərləri AFFA nümayəndəsinin iştirakı ilə məsələyə müdaxilə etmək iqtidarındadırlar.

## 10. Startı mümkün olmayan və başa çatdırılmamış oyun

1. Əgər hakimin fikrincə futbolçuların səhhəti üçün təhlükəli hava şəraitinə və ya baş vermiş gözlənilməz hadisələrə, həmçinin işıqlandırma sistemində yarana biləcək nasazlığa və digər hallara görə oyunun startı mümkün deyilsə və bu problemlərin aradan qaldırılması 30 dəqiqə ərzində mümkün deyilsə, oyun ertəsi günə təxirə salınır. Qarşılaşmanın vaxtı və məkanı ilə bağlı PFL qərar verir.

2. Oyun hakimin fikrincə futbolçuların səhhəti üçün təhlükəli hava şəraitinə və ya baş vermiş gözlənilməz hadisələrə, həmçinin işıqlandırma sistemində yarana biləcək nasazlığa və digər hallara görə axıra qədər oynanılmayıbsa və bu problemlərin aradan qaldırılması oyun yarımçıq dayandırıldıqdan sonra 30 dəqiqə ərzində mümkün deyilsə, həmin qarşılaşma ertəsi gün PFL-in təyin etdiyi vaxtda və məkanda davam etdirilməlidir.

3. Əgər oyunun davam etdirilməsi ertəsi gün mümkün deyilsə, aşağıdakı  tənzimləmələr tətbiq olunur:

3.1. Yarımçıq dayandırılmış oyunlar yenidən keçirilmir, onların qalan hissəsi oynanılır (dayandırıldığı dəqiqədən etibarən, dayandırıldığı yerdən).

3.2. Yarımçıq dayandırılmış oyunun dayanma vaxtı,

dayanma səbəbi, tətbiq olunmuş sanksiyalar və oynanan hissəsinin hesabı PFL-in elektron bazasında və ya istifadə edildiyi təqdirdə protokolun kağız variantında və AFFA nümayəndəsinin hesabatında əks olunmalıdır. Oyunun oynanmış hissəsinin hesabı və tətbiq olunmuş intizam sanksiyaları görüşün qalan hissəsinin oynanıldığı zaman olduğu kimi saxlanılır.

3.3. Oyunun yarımçıq qalmış hissəsinin növbəti gün keçirilməsi mümkün olmadıqda PFL rəhbərliyi əsas yayımçı ilə razılıq üzrə yeni tarix, eləcə də bu oyunun qalan hissəsinin oynanılacağı yeri və vaxtı təyin edir. Yekunlaşması mümkün olmayan oyun başqa bir stadionda oynanıla bilər.

3.4. Oyunun yarımçıq dayandırılmasına qədər əvəzetmələr baş veribsə, əvəz olunmuş oyunçu yenidən meydana çıxa bilməz. Xüsusi hallarda əgər əvəzetmə limiti bitibsə və yalnız xəstəxananın həkimi tərəfindən AFFA nümayəndəsinin iştirakı ilə təqdim olunan və PFL tərəfindən məqbul hesab edilən arayış nəticəsində futbolçu və ya futbolçular başqa futbolçu və ya futbolçular ilə əvəz oluna bilər.

3.5. Yarımçıq dayandırılmış oyun baş tutmalı olduğu yarımil ərzində oynanılmalıdır.

3.6. Oyunun qalan hissəsinin görüş yarımçıq dayandırılana qədər olan hakimlər briqadası tərəfindən idarə olunması məqsədəuyğundur. Əgər yeni hakimlər briqadası təyin olunarsa, əvvəlki hakimlər briqadası bütün tədbirlərlə bağlı yeni hakimlər briqadasını məlumatlandırmalıdır.

3.7. Yarımçıq dayandırılmış oyunun bərpa günü oyundan öncə, starta 2 saat qalmış AFFA nümayəndəsi ənənəvi qaydada iclas keçirir və bütün tədbirlərlə bağlı məlumat verir.

3.8. Əgər oyun yarımçıq dayandırılan zaman görüşün əhəmiyyətli hissəsi oynanılıbsa və oyunda hesab arasındakı fərq açıq-aşkardırsa, o zaman PFL hər iki komandanın razılıq məktubunu alaraq oyunun hesabını dayandırıldığı zamanda olduğu kimi saxlamaq və matçı bu hesabla rəsmiləşdirmək və bitdiyini elan etmək iqtidarındadır. Bununla bağlı bütün məqamlar idman prinsipləri əsas götürülərək PFL-in İdarə Heyətinin səlahiyyətindədir.

4. Stadionun texniki çatışmazlığı, eyni zamanda işıqlandırma sisteminin pozulması səbəbindən oyun yarımçıq dayandırıldığı təqdirdə qonaq komandanın çəkdiyi xərclərə görə tələb olunarsa, ona qəbul edən komanda tərəfindən kompensasiya ödənilməlidir.

5. Aşağıda göstərilən səbəblərə görə yarımçıq dayandırılmış

oyun davam etdirilmir:

- kənar şəxsin və ya şəxslərin, hakimin fikrincə, oyunu dayandırmaq səviyyəsində olan müdaxiləsinə görə (azarkeş də daxil olmaqla);

- bir və ya hər iki komandanın futbolçuları tərəfindən kütləvi intizamsız davranışa görə;

- bir və ya hər iki komandanın heyətində 7 (yeddi) oyunçudan az futbolçunun iştirakına görə.

6. Bu oyun haqqında yekun qərar İntizam Komitəsi tərəfindən qəbul olunur. Oyunun yarımçıq dayandırılmasına səbəb olmuş vəziyyətin araşdırılmasından sonra İntizam Komitəsi klublardan heç birinə texniki məğlubiyyət verməsə, oyunun qalan hissəsi bu Əsasnamənin “Startı mümkün olmayan və başa çatdırılmamış oyun” maddəsinin bəndlərinə uyğun olaraq, eləcə də İntizam Komitəsinin çıxardığı digər mümkün sanksiyalar (oyunun azarkeşsiz, başqa şəhərdə neytral stadionda keçirilməsi) nəzərə alınaraq keçirilməlidir.

7. Hakim oyunun yarımçıq dayandırılması ilə bağlı verəcəyi yekun qərardan öncə mütləq PFL ilə məsləhətləşməlidir.

## 11. Oyunun rəsmi şəxslərinin məsuliyyəti

1. Futbolçular, futbol klublarının rəhbərləri, PFL-in bayrağı altında keçirilən oyunlarda rəsmi iştirakçı olan hər kəs bu Əsasnamənin tələblərinə riayət etməyə borcludur və bu zaman yüksək nizam-intizam, rəqiblərə və tamaşaçılara hörmət nümayiş etdirməlidir. Klubların rəhbərləri, futbolçular və PFL-in bayrağı altında keçirilən oyunlarda rəsmi iştirakçı olan şəxslərin heç biri hakimlərin və AFFA nümayəndəsinin, PFL əməkdaşlarının fəaliyyətinə müdaxilə edə bilməz.

2. Klublar öz rəsmi şəxslərinin, üzvlərinin və tamaşaçıların, habelə klublar arasında bu və ya digər oyunda müəyyən funksiya yerinə yetirən hər hansı şəxsin hərəkətləri üçün məsuliyyət daşıyırlar.

3. PFL tərəfindən verilmiş A buraxılış vəsiqəsi üzvlər tərəfindən görünən səviyyədə taxılmalıdır (stadionun soyunub-geyinmə otaqları yer alan dəhlizə daxil olduqdan sonra oyunda iştirak edəcək futbolçulara şamil olunmur). Stadionun otaqlarında xidmət aparan şəxslər mütləq şəkildə vəsiqəni taxmalıdır. A buraxılış vəsiqəsi şəxsin stadionda əsas sənədi sayılır. Şəkilli A buraxılışının

kənar şəxsə ötürülməsinə görə klub məsuliyyət daşıyır. İşlərin daha səmərəli görülməsi və stadionun xidmət üzrə daha məqsədəuyğun istifadəsi üçün 3 zona tətbiq olunur. Zonalara giriş şəxslərə verilmiş xüsusi rəngli A buraxılışları ilə tənzimlənir. “Zona-1” vəsiqəsinin sahibi hər 3 zonaya daxil olmaq ixtiyarına malikdir. Digər zonalar üzrə paylaşımlar məhdudiyyətlidir. Yəni hər kəs öz zonasında xidmət aparmalı və yalnız ciddi ehtiyac yaranacağı təqdirdə AFFA nünayəndəsinin icazəsi ilə digər zonalara keçid etməlidir. Zona bildirişləri stadion ərazisində vurulur və şəxslər buna uyğun hərəkət etməlidirlər. Oyundan öncə, oyun zamanı və oyundan sonra şəxslər meydana çıxış üçün nəzərdə tutulan giriş-çıxış qapısında sıxlıq yaratmamalı və burada toplaşmamalıdırlar. Yalnız hər iki komandanın PFL-də qeydiyyatdan keçən əsas kontakt şəxsinə və mətbuat katibinə, eləcə də PFL-in istisna olaraq müəyyənləşdirəcəyi şəxslərə tunel ərazisində dayanmaq imkanı veriləcək.




**ZONA-1**

- Meydan
- Ev komandasının texniki zonası
- Qonaq komandanın texniki zonası
- Ev komandasının isinmə hərəkətləri etdiyi zona
- Qonaq komandanın isinmə hərəkətləri etdiyi zona
- Tibb otağı
- Nümayəndə otağı
- Tunel
- Hakim otağı
- Dopinq-test otağı
- Eyni zamanda bu ərazidə yer alan digər otaqlar
- Ot örtüyü üzrə stadion əməkdaşları

**ZONA-2**

- Fotoqraflar
- Topdaşıyan şəxslər
- Əsasnamə ilə icazə verilən digər əməkdaşlar

**ZONA-3**

- Stadion ofisləri
- İş otaqları
- “Sky box” otaqları
- Tribuna
- Yayımçı şirkət üçün yerlər

4. Premyer Liqa, I Liqa, Əvəzedicilər Liqası və Azərbaycan Kubokunda idarəçilik edən hakimlərə stadion ərazisinə giriş kartı, AFFA nümayəndələrinə və hakim-inspektorlara mövsümlük A buraxılışı vəsiqəsi verilir.

5. Futbolçuların, komandaların rəhbərlərinin intizamsızlığı, habelə stadionda matçdan əvvəl, oyunun gedişində və sonra tamaşaçılar arasında baş vermiş iğtişaşlar müvafiq qaydada qeyd olunur və məsələyə AFFA-nın İntizam Komitəsində baxılır.

6. Oyun qaydalarını, mövcud Əsasnamənin tələblərini pozduqları halda futbolçular, məşqçilər, futbol klublarının rəhbərləri, digər klub rəsmiləri, hakimlər, nümayəndələr və hakim-inspektorlar barədə sanksiyalar və digər təsir tədbirləri tətbiq olunur. İşlərin AFFA İntizam Komitəsinə verilməsi və müvafiq sanksiyaların tətbiqi üçün aşağıdakılar əsasdır:

- matçın protokoluna qeyd olunmuş rəsmi xəbərdarlıqlar və qovulma halları;
- AFFA nümayəndəsinin, hakim-inspektorun, hakimin raportu və ya rəsmi müraciəti;
- İcraiyyə Komitəsi üzvlərinin, AFFA və PFL əməkdaşlarının, klub rəhbərlərinin, mətbuat və televiziya nümayəndələrinin yazılı bəyanatları və digər sənədlər;
- Sosial mediadakı postlar (əgər İntizam Komitəsi üzvləri tərəfindən məqbul hesab edilərsə);
- AFFA İntizam Komitəsinin məqbul saydığı rəsmi şəxslər tərəfindən edilən rəsmi müraciətlər.

7. Oyun rəsmilərinin raportları əks-sübut olmayana qədər əsas götürülür.

8. Matçın nümayəndəsi və baş hakimi oyunun keçirilməsi üçün tələb olunan bütün tədbirləri həyata keçirməyə borcludur.

## 12. Protestlər

1. Protest verildiyi halda, yaxud oyunun gedişində ciddi münaqişələr baş verdikdə baş hakim və nümayəndə dərhal PFL-ə öz raportlarını göndərirlər. Bundan əlavə, oyun bitdikdən sonra protest edən komandanın nümayəndəsi bu barədə AFFA nümayəndəsini xəbərdar etməlidir. Protest verən tərəf ancaq oyunun vaxtı (əsas vaxt və əlavə edilmiş dəqiqələr), cəza sanksiyalarının bir futbolçunun əvəzinə səhvən digər oyunçuya

tətbiq olunması, qeyri-qanuni iştirak etmiş futbolçu və limit pozuntusu ilə bağlı etirazlarını nümayəndənin otağında hakim protokolunda elektron qaydada qeyd edə bilər. Klublar yuxarıda qeyd olunan protestlərdən başqa etirazlarını 24 saat ərzində elektron şəkildə PFL-ə və AFFA İntizam Komitəsinə rəsmi şəkildə göndərə bilərlər.

**13. AFFA nümayəndəsi, hakimlik və inspeksiya**

1. Premyer Liqa, I Liqa və Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və pley-off oyunlarına AFFA Hakimlər Komitəsi tərəfindən hakimlər, hakim-inspektor, PFL tərəfindən isə rəsmi nümayəndə təyin olunur. AFFA nümayəndəsinin səlahiyyətinə oyunun təşkilinə və keçirilməsinə nəzarət, hakim inspektorların səlahiyyətinə isə oyunun hakimlər birqadasının işinə qiymət vermək daxildir.

2. Oyunun startına ən azı 75 dəqiqə qalmış oyunun baş hakimi komandaların oyun protokolunun elektron formada doldurulduğunu yoxlamalıdır. Elektron protokol doldurulub təsdiqləndikdən sonra oyun protokolunun PFL-ə göndərilməsi avtomatik olaraq həyata keçirilir.

3. Texniki səbəbdən elektron protokolu doldurmaq mümkün olmadıqda oyun protokolu yazılı şəkildə əllə doldurulur. Bu zaman protokola klubun sifariş vərəqəsində PFL tərəfindən təsdiqlənmiş adları qeyd olunan oyunçu və məşqçilər heyəti, eləcə də texniki heyət nümayəndələri salına bilər. Yazılı şəkildə əllə doldurulan oyun protokolu klubun məsul şəxsi tərəfindən imzalandıqdan sonra klub tərəfindən təsdiqlənmiş hesab olunur.

4. Oyunöncəsi isinmə hərəkətləri üçün hakimlərə stadionun mərkəz xəttindən sola və sağa, 4-cü hakimin yerinin qarşısında 20m² yer ayrılmalıdır. Hakimin məşq yeri özü tərəfindən qaydalara uyğun şəkildə ayrılmalıdır. Bunun üçün meydan sahibi klub oyundan öncə hakim otağına xüsusi əşyalar qoymalıdır. Bu yerdə komandalar heç bir məşq həyata keçirə bilməzlər.

5. AFFA Hakimlər Komitəsi PFL ilə qarşılıqlı razılaşma əsasında Premyer Liqa və Azərbaycan Kubokunun bəzi oyunlarına əcnəbi hakimlər təyin etmək hüququna malikdir.

6. Hakimlik FIFA Oyun Qaydaları və mövcud Əsasnamə əsasında hayata keçirilir.

7. Hakimlərin işinə nəzarət AFFA Hakimlər Komitəsi tərəfindən həyata keçirilir.

8. AFFA Hakimlər Komitəsi Premyer Liqa, Azərbaycan Kuboku, I Liqa, Əvəzedicilər Liqası və pley-off oyunlarına 4 nəfərdən ibarət hakimlər briqadası (1 baş hakim, 2 yan xətt hakimi və 1 ehtiyat hakim) təyin edir. Video köməkçi hakim (VAR) olan oyunlarda VAR və AVAR təyin edilir. Oyunların əhəmiyyətini nəzərə alan Komitə ehtiyat yan xətt hakimləri təyin etmək hüququna da malikdir. Oyunlara təyin olunmuş hakimlər briqadası qarşılaşmanın keçirildiyi məkana oyunun başlamasına ən gec 90 dəqiqə qalmış gəlməli və gəlişi barədə ehtiyac yaranarsa, meydan sahibi kluba xəbər verməlidir. Hakim-inspektor isə oyunun başlamasına ən gec 60 dəqiqə qalmış stadionda olmalıdır.

9. Əgər baş hakim oyuna gəlməzsə, onu ehtiyat hakim əvəz edir. Hakimlər briqadası bütünlükdə oyuna gəlməzsə, bu zaman qarşılaşmanı PFL-in razılığı ilə yerli hakimlər (AFFA-nın Hakimlər Komitəsi tərəfindən təsdiq olunmuş) idarə edirlər. Yerli hakimlərin də oyuna gəlişi təmin olunmazsa, görüş təxirə salınır və ertəsi günə keçirilir. AFFA-nın Hakimlər Komitəsi həmin gün oyunu hakimlər briqadası ilə təmin etməyə borcludur.

10. AFFA nümayəndəsi oyunun startına ən geci 150 dəqiqə qalmış stadionda olmalı, stadiona ümumi ilkin baxışdan sonra bu Əsasnamənin 9-cu maddəsinin 7-ci bəndində qeyd olunmuş şəxslərin iştirakı ilə oyunöncəsi iclas keçirməlidir. Əgər AFFA nümayəndəsi bu və digər səbəbdən oyunöncəsi iclasda iştirak edə bilmirsə, o zaman PFL ilə məsləhətləşmələrdən sonra iclasın vaxtı dəyişir, iclasa rəhbərliyi ya hakim-inspektor, ya da hakimlər briqasında təmsil olunan şəxslərdən biri edə bilər. Bununla bağlı yekun qərar PFL-ə məxsusdur.

11. Oyunun startından ən geci 1 saat əvvəl baş hakim nümayəndə və hakim-inspektorla birlikdə futbol meydanını yekun olaraq nəzərdən keçirməli, onun oyuna hazırlığını qiymətləndirməlidir.

Eyni zamanda:

a. Baş hakimin müraciətindən sonra AFFA nümayəndəsi oyunun keçirilməsinə cavabdeh olan şəxslərdən tələb etməlidir ki, onlar stadionda (futbol meydanında) aşkar edilmiş nöqsanları oyun başlananadək aradan qaldırsınlar.

b. Oyundan əvvəl, oyunun gedişində və oyundan sonra, habelə hakimlər otağında və hakimlər briqadası yolda olarkən baş

vermiş bütün münaqişələr barədə baş hakim və onun köməkçiləri AFFA nümayəndəsini məlumatlandırdıqdan sonra mütləq Hakimlər Komitəsinə, eləcə də PFL-ə raportla müraciət etməlidirlər.

c. Baş hakim oyun protokolunun lazımi qaydada tərtibatı üçün məsuliyyət daşıyır. Baş hakim oyunun gedişində futbolçuların xəbərdarlıq almalarını, meydandan çıxarılmalarını, əvəzlənmələrini protokola daxil etməli, eləcə də elektron sistemdə və ya ehtiyac olarsa, kağız protokolda tələb olunan xanaları doldurmalıdır. Əks halda, bunununla bağlı AFFA Hakimlər Komitəsinə rəsmi müraciət olunur.

ç. Nümayəndə oyunun təşkili və keçirilməsi ilə bağlı məsələləri (habelə təhlükəsizlik xidmətinin, nəzarət-buraxılış, yayım, yanğınsöndürmə xidmətlərinin və digər xidmətlərin işini) həll etməli, hakim-inspektor isə mövcud metodiki vəsait və şəxsi təhlil əsasında hakimin fəaliyyətini qiymətləndirməlidir. Oyundan əvvəl, oyunun gedişində və oyundan sonra baş verən intizamsızlıq hərəkətlərini müəyyən etmək üçün videomateriallardan istifadə oluna bilər.

d. Oyun başa çatdıqdan sonra baş hakim ən gec 30 dəqiqə ərzində protokolu tərtib etməlidir. Əgər oyunun gedişində futbolçuların xəbərdarlıq almaları, meydandan çıxarılmaları və əvəzlənmələri, habelə stadionda asayişin pozulması faktları mövcud olubsa, matçın baş hakimi protokolda bu barədə qeydlər aparmalıdır.

e. AFFA nümayəndəsi başa çatmış oyun barədə PFL-i növbəti gün saat 12:00-dək məlumatlandırmalı, meydanda, yaxud meydandan kənarda olmuş insidentlər barədə raport göndərməlidir.

ə. Oyundan sonra hər iki komandanın baş məşqçisinin iştirakı ilə mətbuat konfransı keçirilir. Oyun bitdikdən ən geci 20 dəqiqə sonra ilk olaraq qonaq komandanın baş məşqçisi, daha sonra ev sahibi komandanın baş məşqçisi mətbuat konfransında iştirak edir. Həmin mətbuat konfransında hakimlərin ünvanına şər-böhtan və təhqiramiz ifadələr işlətmək qadağandır. Ehtiyac yaranacağı təqdirdə baş məşqçilərin səsləndirdiyi fikirlər, eləcə də əcnəbi jurnalistlər tərəfindən veriləbiləcək suallar mütləq Azərbaycan dilinə tərcümə olunmalıdır. Baş məşqçi üzrsüz səbəbdən mətbuat konfransında iştirak etməzsə, AFFA nümayəndəsinin raportunda bununla bağlı qeyd əks olunmalıdır. Əgər səhhəti ilə bağlı yaranmış problemə görə (proses AFFA

nümayəndəsinin nəzarəti ilə həyata keçirilir) baş məşqçi mətbuat konfransda iştirak etməzsə, bu zaman onu adı protokolda qeyd edilmiş məşqçilərdən biri əvəz edir.
Oyun zamanı texniki zonadan uzaqlaşdırılmış məşqçi mətbuat konfransında iştirak edə bilməz. AFFA İntizam Komitəsinin qərarı ilə cəzalandırılan baş məşqçi və ya məşqçinin cəzalı olduğu müddətdə mətbuat konfransında, eləcə də oyunöncəsi isinmə hərəkətlərində iştirakı qadağan olunur. Cəzalı məşqçinin həm cəza aldığı oyunda, həm AFFA İntizam Komitəsinin qərarı ilə cəzalandırıldığı müddətdə Zona-1 ərazisinə daxil olması qadağandır. O, tribunada yer ala bilər. Bu müddət ərzində məşqçi özünü idman ləyaqətinə uyğun aparmalıdır. Əgər hər hansı bir insident və qeyri-idman hərəkətləri baş verərsə, AFFA nümayəndəsi, eləcə də raportu əsas götürülən şəxslər bu barədə qeyd apara və məşqçinin cəzası artırıla bilər. Tətbiq olunan qaydalar digər rəsmi şəxslərə və futbolçulara da aiddir.

f. Oyundan öncə və oyunun gedişində kənarlaşdırılan rəsmi şəxs və futbolçu soyunub-geyinmə otağında və ya tribunada otura bilər. Onun soyunub-geyinmə otağını tərk etdikdən sonra yenidən ora qayıtması qadağandır. Kənarlaşdırılan şəxs meydana bitişik ərazidə, eyni zamanda stadionun dəhlizində ola bilməz. Qovulan rəsmi şəxs və futbolçu tribunada yer alacağı təqdirdə beynəlxalq standartlara uyğun olaraq ona nümayəndə nəzarət edir.

g. Komandalar PFL-ə rəsmi müraciət etməklə İntizam Komitəsinin iclasından öncə qırmızı vərəqə ilə bağlı qayda pozuntusu haqqında hakimin hesabatını, eləcə də oyunun protokolunu əldə edə bilərlər. Əgər rəsmi TV, yaxud PFL kamerası epizodun aşkar görüntüsünü verirsə, bu, komanda və İntizam Komitəsi tərəfindən sübut kimi istifadə edilə bilər. FIFA qaydalarına əsasən, heç bir şəxsi çəkiliş istifadə edilə bilməz. Amma heç bir halda səhv qərara görə (məsələn, ciddi olmayan qayda pozuntusu) qırmızı, yaxud sarı vərəqənin ləğv edilməsi mümkün deyil.

ğ. Azarkeşlər, komandalar və oyunun hakimləri stadionu tərk edənə qədər AFFA nümayəndəsi stadionda qalmalıdır. Oyunun təşkilinə cavabdeh olan şəxslər (oyunöncəsi iclasda olan şəxslər) stadionu tərk edən zaman AFFA nümayəndəsinə bildirməlidirlər.

h. Hakimlər, AFFA nümayəndəsi, hakim-inspektorların qonorarları, ezamiyyə, yol və mehmanxana xərcləri AFFA tərəfindən ödənilir.

12. Nəzərə alınmalıdır ki, oyunun əsas təşkilatçısı Əsasnaməyə uyğun olaraq AFFA nümayəndəsidir. AFFA nümayəndəsinin oyundan öncə, oyun zamanı, oyundan sonra qaydalara uyğun tələbləri qeyd-şərtsiz yerinə yetirilməlidir.

**14. Matçların yayımının və media nümayəndələrinin akkreditasiyasının təşkili**

1. PFL mövsümboyu jurnalistlərin və digər media işçilərinin akkreditasiyasını həyata keçirir. Media subyektlərinin nümayəndələri tələb olunan sənədləri tam şəkildə və vaxtında PFL-ə təqdim etməlidirlər. Akkreditasiyanın verilib-verilməməsi ilə bağlı yekun qərar tam olaraq PFL-in səlahiyyətindədir. PFL-də akkreditasiya olunmamış media subyektlərinin nümayəndələri və digər media işçiləri media sektora, oyundan sonra təşkil olunan mətbuat konfransına, miks-zonaya buraxılmır.

2. PFL-in media nümayəndələri və digər media işçiləri üçün nəzərdə tutulan akkreditasiyasını alan şəxs onun istifadə qaydaları üzrə tam olaraq məsuliyyət daşıyır.

3. Tələblərin pozulması halında PFL akkreditasiyanı ləğv etmək hüququna malikdir.

4. Premyer Liqa, Azərbaycan Kuboku, Əvəzedicilər Liqası, I Liqa, II Liqanın müntəzəm, eləcə də  Premyer Liqa, I Liqa və II Liqa uğrunda pley-off oyunlarının eksklüziv yayım hüquqları PFL-ə məxsusdur. Klublar, eləcə də yayımda maraqlı olan bütün tərəflər yayımla bağlı bütün məsələləri PFL ilə rəsmi şəkildə razılaşdırmalıdır.

5. 2025/26 mövsümündə Premyer Liqa və Azərbaycan Kubokunun eksklüziv yayım hüququ “CBC Sport” telekanalına verilir.

6. STS maşınının vaxtında stadiona çatmaması, yaxud digər səbəbdən oyunun canlı yayımlanmaması və ya oyundan öncə, oyun zamanı meydana gəlmiş texniki problem, yaxud digər səbəbdən canlı yayımda fasilə yaranması, canlı yayımın ümumiyyətlə dayanması oyunun keçirilməsi və ya davam etməməsi üçün əsas deyil.

7. Azərbaycan Premyer Liqası, I Liqa, II Liqa, Əvəzedicilər Liqası, Azərbaycan Kuboku və pley-off oyunlarının internet üzərindən onlayn yayımlanması hüququ yalnız PFL-ə məxsusdur. Müraciət ediləcəyi təqdirdə, PFL İdarə Heyəti klub televiziyasının

komandanın Əvəzedicilər Liqası oyunlarını internet üzərindən onlayn yayımlama istəyini müzakirə edə bilər.

8. Oyundan əvvəl, oyun zamanı və oyundan sonra arenaya keçmək üçün yayımçı şirkətin oyunlarda olan bütün personalı PFL tərəfindən verilmiş xüsusi vəsiqə ilə təmin olunmalıdır, onlar stadion ərazisində özlərinə aid zonalarda fəaliyyət göstərməlidirlər. Vəsiqə görünən şəkildə asılmalıdır.

9. Oyun zamanı meydan sahibi klub aşağıdakıları həyata keçirməyə borcludur:

- Əsas yayımçı şirkətin bütün TV avadanlıqlarına, qurğularına, kommunikasiya xətlərinə, həmçinin oyunun yayımlanması üçün vacib olarsa, stadionun digər ərazilərinə (VIP loja, hakimlər otağı, soyunub-geyimə otağı, AFFA nümayəndəsi və hakim-inspektor otağı və dopinq otağı istisna olmaqla) maneəsiz çıxışını təmin etməlidir.
- Yayımçı şirkəti avtomobillər, STS, sputnik əlaqəsi stansiyaları, digər texnika və avadanlıqların saxlanılması üçün təhlükəsiz və qorunan ərazi ilə təmin etməlidir.
- Yayımçı şirkətin ilk maşını dayanacağa girəndən sonuncu maşını dayanacağı tərk edənə qədər dayanacaq daimi qorunmalıdır.
- Yayımçı şirkətə komandanın stadiona gəlişinin və tuneldən meydana çıxışının videoçəkilişini aparmaq imkanı yaratmalıdır.

10. Yayımçı şirkət oyunöncəsi bilavasitə meydanda aşağıdakı proseslərin çəkilişinin aparılması hüququna malikdir:

- Komandaların meydana çıxması;
- Oyunöncəsi komandaların və hakimlərin bir-birlərini salamlaması;
- Qapıları və oyuna başlayacaq komandanı seçmək üçün püşkatma;
- Komandaların kollektiv şəkil çəkdirməsi.

11. Stadionlarda mətbuat nümayəndələri üçün nəzərdə tutulan lojalarda KİV əməkdaşlarının yer alması üçün şərait yaradılmalıdır. Jurnalistlərin çalışdıqları məkanın üstü bağlı olmalı və digər sektorlardan ayrılmalıdır. Klub tərəfindən internet və elektrik cərəyanı ilə təmin edilməlidir. Kənar şəxslər (mövsümlük media akkreditasiyası olmayan istənilən şəxs) Media sektorda olmamalıdır. Belə hal aşkarlanarsa, AFFA nümayəndəsinin tələbi əsasında həmin şəxslər Media sektordan uzaqlaşdırılmalıdır. Eyni zamanda AFFA nümayəndəsi raportunda bu barədə qeyd aparacaq və məsələ AFFA

İntizam Komitəsində müzakirə olunaraq kluba qarşı müvafiq cəza tədbiri tətbiq ediləcək. PFL-də akkreditasiya olunmuş mətbuat nümayəndələri Media sektora daxil olduqları andan oranı tərk edənə qədər mövsümlük akkreditasiyanı üzərində aydın görünən şəkildə asmalıdırlar.

12. Hər bir klub oyunun videoyazısını apara bilər. Əvəzedicilər Liqasında hər bir kluba meydan sahibi olduğu oyunun icmalını saytında və ya sosial şəbəkə hesabında yerləşdirməsi tövsiyə olunur.

13. Klublar bütün futbolçuların miks-zonadan keçidini təmin etməli və akkreditasiyadan keçmiş media nümayəndələrinin müsahibə ilə bağlı hər hansı müraciəti yekun qərardan asılı olmayaraq futbolçuların diqqətinə çatdırılmalıdır. Futbolçu istəmədiyi halda müsahibə-açıqlamadan imtina edə bilər.

14. Miks-zonalar futbolçuların soyunub-geyinmə otağından nəqliyyat vasitəsinə üz tutduğu yolun üzərində və ya stadionunun infrastruktunun imkan verdiyi maksimum əlverişli yerdə quraşdırılmalıdır. KİV nümayəndələri futbolçular paltardəyişmə otağına keçdikdən sonra miks-zonaya buraxılır.

15. Mətbuat konfransı üçün otaqlar oyunun sonunadək hazır olmalıdır (istisna hallar yalnız PFL-in razılığı əsasında ola bilər). Konfrans otaqlarında ən azı 20 KİV nümayəndəsinin yer alması, eləcə də videokameraların quraşdırılması üçün məkanlar olmalıdır. PFL-də akkreditasiya olunmuş mətbuat nümayəndələri mətbuat konfransı otağına daxil olduqları andan oranı tərk edənə qədər mövsümlük akkreditasiyanı üzərində aydın şəkildə görünən yerdə asmalıdırlar. Bundan imtina edən mətbuat nümayəndəsi AFFA nümayəndəsinin tələbi əsasında meydan sahibi klub tərəfindən mətbuat konfransı otağından kənarlaşdırılır.

16. Akkreditasiyadan keçmiş fotoqraflar komandalar meydana daxil olarkən və meydanda düzülərkən mərkəz xəttə yaxın ərazidə, komandalara mane olmayacaq şəkildə çəkiliş apara bilərlər. Oyunun start fitindən sonra fotoqraflar qapı xətləri boyunca işləməlidirlər. Onların yan xətlər boyunca hərəkət etməsi qadağan olunur.

17. Şərhçi otağı yayım üçün nəzərdə tutulan əsas kamera ilə yanaşı qurulmalıdır. Şərhçi otağının quruluşu və məkanı futbol meydanını tam şəkildə görməyə imkan verməlidir.

18. Şərhçi otağı işıq və internetlə təmin olunmalıdır. Şərhçi

otağının içərisində şərhə mane olacaq səsin əks olunmasının qarşısının alınması üçün tədbir görülməlidir. Şərhçinin istifadə etdiyi ləvazimatlar nasazlıq yaranacağı təqdirdə dərhal və hissolunmaz tərzdə aradan qaldırılması üçün texniki personala əlçatan olmalıdır.

19. PFL tərəfindən oyun keçirilən məkanda çalışa bilmək üçün akkreditə olunmuş şəxslər belə oyundan öncə, oyun zamanı, fasilədə və oyundan sonra yalnız PFL-in təlimat-tapşırıqlarını qəbul etdikdən sonra meydana daxil ola bilərlər. Əks halda, onların fəaliyyəti qadağandır.

20. PFL ilə razılaşdırıldığı halda, oyunun final fitindən sonra əsas yayımçının operatoru və müxbiri meydanın mərkəzinə və tribunaaltı ərazilərə buraxıla bilər.

21. Əsas yayımçı və PFL oyunsonrası mətbuat konfransında kameranın yerləşdirilməsində prioritet hüquqa malikdir.

22. Akkreditasiyadan keçmiş, amma yayımçı olmayan TV əməkdaşları yalnız miks-zonada, media iş otağında, oyundan sonrakı mətbuat konfransında çəkiliş edə bilərlər.

23. Akkreditasiyadan keçmiş, amma yayımçı olmayan televiziya kanallarının əməkdaşlarına qısa xəbər süjetləri hazırlanması, "stəndap" çəkilməsi və azarkeşlərlə qısa müsahibələr edilməsinə yalnız oyundan əvvəl və ya sonra, ya da fasilədə icazə verilir. Çəkiliş qrupunun operatoru fərqləndirici jilet geyinməlidir. Müxbir isə bu geyimdən istifadədə sərbəstdir. Oyundan öncə, oyun zamanı və oyundan sonra veriliş olacaqsa, onun stadiondakı yeri konkret bildirilməlidir.

24. Akkreditasiyadan keçmiş, lakin yayım hüququ olmayan KİV və TV nümayəndələri də hər iki komandanın baş məşqçiləri və futbolçularından müsahibə götürmək hüququna malikdirlər.

25. Yayım hüququna malik olmayan digər telekanallar yayımla bağlı istənilən məsələni PFL və "CBC Sport" telekanalı ilə razılaşdırmalıdırlar.

26. Mətbuat konfransında klub televiziyasının əməkdaşının rəqib komandanın baş məşqçisinə sual verməsi qadağan olunur.

27. Klub televiziyasının stadionda çəkilişləri yalnız PFL-ə bununla bağlı müraciətə cavab aldıqdan və yalnız aşağıdakı şərtlər reallaşdırıldıqdan sonra mümkün ola bilər:

a) AFFA nümayəndəsi oyundan öncəki iclasda futbol meydanındakı çəkilişlə bağlı məlumatlandırılmalıdır.

b) Futbol meydanında çəkilişlərlə bağlı iştirakçı hər klubdan

1-dən çox olmamaq şərtilə klub televiziyasının əməkdaşına icazə verilir.

c) Klub televiziyasının əməkdaşı fərqləndirici jilet geyinməlidir.

ç) Tribunalarda oyunda iştirak edən komandaların televiziyalarının yalnız bir əməkdaşı çəkiliş apara bilər.

d) Çəkilişlər zamanı ştativdən istifadəyə yalnız tamaşaçıların izləməsinə mane olmayacaq şəkildə qurulacağı təqdirdə icazə verilir. Əks təqdirdə ştativlərin istifadəsi qadağandır.

e) Tribunada çəkiliş aparan televiziya əməkdaşı fərqləndirici jilet geyinməlidir.

ə) Hər hansı klubun aktiv azarkeşlərinin yerləşdiyi sektorda yalnız o komandanın (PFL-dən başqa) televiziyasının çəkiliş aparmaq hüququ var.

28. Oyunun başlama saatını yekun olaraq PFL müəyyən edir.

29. Ev sahibi klub canlı yayım təşkil edən qurum üçün bütün lazımi şəraiti yaratmağa borcludur.

30. Yayımla bağlı meydana çıxacaq digər məqamlar PFL və “CBC Sport” tərəfindən müzakirə olunur. Yekun qərar PFL-ə məxsusdur.

## Düzülüş qaydası




1. Oyunöncəsi komandalar
2. Oyunöncəsi fotoqraflar
3. Oyun zamanı fotoqraflar
4. Mərkəz xətti üzərində yan xətt videokamerası
5. 20 metrlik videokameralar
6. Əl TV kameraları (Oyun öncəsi, start heyəti və oyun sonrası)
7. Oyun zamanı əl ştativ kamerası
8. Əks bucaq kameraları
9. Əlavə TV kameraları (minimum sahə 10x2m)
10. Yayım aparan şirkətin kameraları (lövhələrin önündəki uzaq kameralar)
11. Ehtiyat oyunçular skamyası

* sarı xətt reklam lövhələridir.

QEYD: İnfoqrafika standart meydana aiddir. Əlavə detallar ayrı-ayrı stadionlara görə dəyişir. Bütün meydan avadanlıqları oyunçular, məşqçilər və oyun rəsmiləri üçün heç bir təhlükə yaratmayacaq şəkildə yerləşdirilir.

31. Oyunlardan sonra baş məşqçilər və futbolçuların “CBC Sport” telekanalının fləş-müsahibələrində iştirak etmələri tövsiyə olunur.

32. Oyunun gedişində hazırlıq və digər məqsədlə tribunada, eyni zamanda meydanın kənarında işıqlardan istifadəyə icazə verilmir.

**15. Mükafatlandırma və xüsusi hədiyyələrin verilməsi**

1. Premyer Liqada 1-ci yeri tutmuş komandaya Azərbaycan çempionu fəxri adı, qızıl medallar və xüsusi kubok verilir. Azərbaycan çempionuna verilmiş kubok qalıcıdır. Çempion komandaya verilən 60 medalın təqdim olunacağı şəxslərin siyahısını klub mərasimdən öncə PFL-ə göndərməlidir. Mükafatlandırma zamanı səhnəyə çıxacaq şəxslərin sayı maksimum 45 olaraq müəyyən edilir.

2. I Liqada 1-ci yeri tutmuş komandaya I Liqanın qalibi fəxri adı, qızıl medallar və xüsusi kubok verilir. I Liqanın qalibinə verilmiş kubok qalıcıdır. Qalib komandaya verilən 50 medalın təqdim olunacağı şəxslərin siyahısını klub mərasimdən öncə PFL-ə göndərməlidir.

3. Əvəzedicilər Liqasında 1-ci yeri tutmuş komandaya Əvəzedicilər Liqasının qalibi fəxri adı, qızıl medallar və xüsusi kubok verilir. Əvəzedicilər Liqasının qalibinə verilmiş kubok qalıcıdır. Qalib komandaya verilən 50 medalın təqdim olunacağı şəxslərin siyahısını klub mərasimdən öncə PFL-ə göndərməlidir.

4. Rəqib qapılarına ən çox qol vuraraq bombardir olan futbolçuya xüsusi mükafat verilir. Bir neçə futbolçu eyni sayda qol vurarsa, onların hər biri xüsusi mükafata layiq görülür və çempionatın bombardiri kimi qəbul olunur. Qayda həm Premyer Liqa, həm Əvəzedicilər Liqası, həm də I Liqa üçün keçərlidir.

5. Azərbaycan Kubokunda qalib gəlmiş komanda PFL tərəfindən hazırlanmış xüsusi kubok və medallarla mükafatlandırılır. Qalib və finalçıya klubların təqdim edəcəyi siyahı üzrə 60 medal verilir. Mükafatlandırma zamanı səhnəyə çıxacaq şəxslərin sayı maksimum 45 olaraq müəyyən edilir.

6. Nümunəvi davranışın qiymətləndirilməsi baxımından PFL bayrağı altında keçirilən yarışlarda feyr-pley mükafatı təqdim olunur. Mükafat mövsüm ərzində nümunəvi davranışı ilə fərqlənən futbolçu, rəsmi şəxs və ya futbolla birbaşa və ya dolayı yolla əlaqəsi olan şəxsə, eləcə də komandaya təqdim oluna bilər. Feyr-pley mükafatı ilə bağlı nominant, qalib və ya qaliblər PFL İdarə Heyəti tərəfindən müəyyənləşdirilir.

7. Beş dəfə Azərbaycan çempionu olan klub loqosuna bir ulduz əlavə etmək hüququna malikdir. Hər növbəti 5 çempionluğa görə bir ulduz əlavə edilməsinə icazə verilir. Loqodan xarici konturda ulduz yerləşdirilə bilməz.

8. Həm Premyer Liqada, həm I Liqada, həm də Əvəzedicilər Liqasında çempionluğun hansı turda rəsmiləşməsindən asılı olmayaraq, mükafatlandırmanın yeri və vaxtı ilə bağlı yekun qərar PFL-in İdarə Heyəti tərəfindən qəbul olunur.

### 16. Ödənişlər

1. Premyer Liqa klubları legionerlərin sifarişi zamanı müvafiq vəsaiti PFL-in hesabına köçürməlidirlər. Köçürmə həyata keçməsə, futbolçu sifariş olunmur.

2. AFFA İcraiyyə Komitəsinin qərarına əsasən, ölkəsinin milli komandasının üzvü olub-olmamasından asılı olmayaraq, bütün legionerlərə rüsum tətbiq edilir. Əcnəbi futbolçular üçün rüsum aşağıdakı kimidir:

- Klubun mövsüm ərzində sifariş etdiyi ilk 7 legionerin hər biri üçün - 5000 (beş min) AZN;
- Klubun mövsüm ərzində sifariş etdiyi 8-12-ci legionerlərin hər biri üçün - 10000 (on min) AZN;
- Klubun mövsüm ərzində sifariş etdiyi 13-15-ci legionerlərin hər biri üçün - 100000 (yüz min) AZN;
- Klubun mövsüm ərzində sifariş etdiyi 16-cı və sonrakı legionerlərin hər biri üçün - 200000 (iki yüz min) AZN.

3. Bir legioner futbolçu mövsüm ərzində 2-ci klubda sifariş olunursa, yeni klubu sıra sayına uyğun olaraq rüsum ödəməlidir. PFL bayrağı altında keçirilən liqalarda çıxış edən klublar arasında baş tutan bütün legioner transferləri, eyni zamanda icarə halları zamanı eyni qayda tətbiq olunur.

4. Premyer Liqa klubları əvəzedici heyət üçün nəzərdə tutulan sifariş vərəqində mövsüm ərzində 5 nəfər legioner futbolçu sifariş edə bilərlər. Klubun əvəzedici heyətinin sifariş vərəqində qeydiyyatdan keçən legionerin hər biri üçün 5 min manat ödəniş müəyyən edilir. Həmin legioner futbolçular ancaq Əvəzedicilər Liqasında çıxış edə bilər. Onlar komandanın əsas heyətində protokolda qeyd olunub meydana çıxacağı halda, klublar Premyer Liqada tətbiq olunan qaydalara riayət etməli və həmin futbolçuya görə Premyer Liqanın sıra sayına uyğun olaraq əlavə ödəniş

etməlidirlər. Bu halda, Əvəzedicilər Liqasında oynaması üçün PFL-ə ödənmiş rüsum əsas məbləğdən çıxılır. Yaranmış borc öhdəliyi komandanın növbəti oyununa qədər bağlanmalıdır.

5. PFL bayrağı altında keçirilən yarışlarda adı klubun sifariş vərəqəsinə salınan, lakin bu və ya digər səbəbdən klubdan ayrılan və sonradan heç bir klubda rəsmi qeydiyyatı olmadan yenidən həmin kluba qayıdan legioner futbolçu yenidən qeydiyyatdan keçirilməlidir. Bu halda rüsum ödənilmir. Adı klubun sifariş vərəqəsinə salınan, lakin bu və ya digər səbəbdən klubdan ayrılan, digər klubda rəsmi qeydiyyata düşən futbolçu yenidən həmin kluba qayıdarsa, həmin futbolçu üçün sıra sayına uyğun olaraq rüsum ödənilir.

6. I Liqa klubları üçün legioner rüsumu ilk 6 legionerin hər biri üçün 5 000 (beş min) manat müəyyən olunur. I Liqa klublarının sifariş etdiyi legioner oyunçunun son statusu peşəkar olmalıdır və PFL İdarə Heyətinin yekun qərarından sonra onun sifariş olunub-olunmayacağına qərar veriləcək. 1-ci Liqa klublarının hər birinə mövsüm ərzində əlavə 1 legionerin sifarişinə icazə verilir. Belə ki, klublar 7-ci legioneri sifariş edəcəkləri təqdirdə 15 000 (on beş min) manat ödəniş etməlidirlər.

7. I Liqada bir legioner futbolçu mövsüm ərzində 2-ci klubda sifariş olunacaqsa, yeni klubu həmin futbolçu üçün sıra sayına uyğun olaraq ödəniş etməlidir.

8. AFFA İntizam Komitəsi tərəfindən PFL bayrağı altında keçirilən yarışlarda tətbiq olunan, eləcə də dolayı yolla bu klublara tətbiq olunan cərimələr Peşəkar Futbol Liqasına ödənilir.

9. Legioner rüsumu ödənişləri xaric (bu rüsum futbolçunun sifariş olunduğu gündə ödənilməlidir), klubların PFL qarşısında yaranmış borcları mövsüm ərzində 4 mərhələdə ödəniləcək:

1. İlkin mərhələdə ən son müddət – 30.09.2025-ci il;
2. İkinci mərhələdə ən son müddət – 25.12.2025-ci il;
3. Üçüncü mərhələdə ən son müddət – avrokuboklara lisenziya iddiaçısı üçün 25.03.2026-cı il, avrokuboklara lisenziya iddiaçısı olmayan üçün isə 05.04.2026-cı il;
4. Yekun mərhələdə ən son müddət – 15.06.2026-cı il.

10. Qeyd olunan tarixlərdə ödənişlər həyata keçirilməsə, PFL-in klublara qarşı müvafiq sanksiyalar tətbiq etmək hüququ var.

### 17. Sifariş ərizəsinin verilmə qaydası və müddətləri

1. Futbolçuların qeydiyyatı və sifarişi iki rəsmi transfer dövründə həyata keçirilir: yay transfer dövrü 19.06.2025 – 10.09.2025, saat 23:59; qış transfer dövrü 14.01.2026 – 10.02.2026, saat 23:59 tarixlərini əhatə edir. Rəsmi transfer dövrləri xaricində klublar azad agent statusuna malik peşəkar oyunçuları (ancaq transfer dövrü bitəndən sonra adı protokola salınmayan oyunçuları) 31 mart 2026-ci il tarixinədək sifariş edə bilərlər. Rəsmi transfer dövrləri xaricində klubların sifariş etmək istədiyi futbolçuların son statusu peşəkar olmalıdır. Həvəskar oyunçuların transferi yalnız rəsmi transfer dövrləri daxilində baş tuta bilər. FIFA qaydalarında qeyd olunan idman prinsiplərini rəhbər tutan PFL 31 mart 2026-cı il tarixini azad agent statusuna malik peşəkar oyunçuların sifarişi üçün son tarix kimi müəyyən edir. Klublar aşağı yaş liqalarında çıxış edən futbolçusunu oyunçu pasportunu və lazım olan digər sənədləri təqdim etməklə mövsüm boyu sifariş edə bilərlər. Başqa klubdan keçid həyata keçirilibsə, sifariş olunacaq gənc futbolçunun cari kluba son qeydiyyat tarixi cari transfer dövrünü keçməməlidir. Bütün transferlər AFFA-nın Oyunçuların Statusu və Transferi Komitəsinin Əsasnaməsinə uyğun olaraq aparılır.

2. Premyer Liqa, Əvəzedicilər Liqası və I Liqa klubları yarışların elektron idarəetmə sistemi vasitəsilə sənədləri elektron formada təqdim etməlidirlər. Əvvəlcə sistemdə sənədlər bölməsi tam şəkildə doldurulmalıdır. Sənədlər bölməsi tam şəkildə doldurulmayan klubun oyunçu qeydiyyatı və sifarişlərlə bağlı tələblərinə baxılmayacaq.

3. Klublar PFL-in onlayn sistemində özləri üçün ayrılmış bölməni tam şəkildə doldurmalıdırlar. PFL tərəfindən qəbul edildikdən sonra futbolçu və digər şəxslər klubun üzvü hesab olunacaq və onların adı iştirak ərizəsində göstəriləcək. Hər hansı bir çatışmazlıq olacağı təqdirdə PFL bununla bağlı klubu məlumatlandıracaq.

4. Klublar PFL-ə şəxsiyyəti təsdiq edən sənədin tikildiyi müqavilənin 3 nüsxəsini (icarə müqaviləsinin 4 nüsxəsini) təqdim etməlidirlər. Müqavilələr Azərbaycan dilində olmalıdır (xarici dillərdə olan müqavilələr Azərbaycan dilinə tərcümə olunmalıdır, eyni səhifədə hər iki dildə müqavilənin yazılmasına icazə verilir). Müqavilənin 1 nüsxəsi PFL-də saxlanılır və gələcəkdə hər hansı bir

mübahisənin həlli üçün əsas sənəd sayılır. Tərəflər müqaviləyə əlavə və dəyişikliklə bağlı PFL-i məlumatlandırmalı, eyni zamanda xitamla bağlı sənədlər PFL-ə təqdim edilməlidir. Müqavilənin hər bir səhifəsində hər iki tərəfin imzası olmalıdır. Klublar müqavilənin PFL tərəfindən təsdiqlənmiş bir nüsxəsini futbolçuya və ya rəsmi şəxsə verməyə borcludurlar. İmzalı və yalnız öncədən PFL-də təsdiqlənmiş müqavilələr, eyni zamanda digər tələb olunan sənədlər səliqəli şəkildə, skan edilərək pdf formatda PFL-in sisteminə də yüklənməlidir. Müqavilənin imzalanma tarixində 2-ci tərəfin - futbolçunun yaşı 18-dən aşağıdırsa, müqavilədə və ya ona əlavədə valideynin və ya qəyyumun razılığı və imzası yer almalıdır. 18 yaşına çatmamış futbolçu ilə bağlanmış 3 ildən artıq, yaşı 18 və daha yuxarı olan futbolçu ilə bağlanmış 5 ildən artıq olan müqavilələr qəbul olunmur. Qəbul olunacaq müqavilələr ya nümunəsi PFL tərəfindən mövsümdən öncə klublara təqdim olunmuş, ya da AFFA-nın Oyunçuların Statusu və Transferi haqqında Əsasnaməsi ilə müəyyən edilmiş məcburi şərtlərin və məlumatların olduğu müqavilələr olacaq. Peşəkar müqavilələrdə əks olunan əməkhaqqının müqavilə imzalanan tarixdə minimum aylıq əməkhaqqı məbləğindən aşağı olmaması tövsiyə olunur.

5. Premyer Liqa klubu və Premyer Liqa klubunun əvəzedici komandası mövsüm ərzində maksimum 30 futbolçu sifariş edə bilər. Bu limit (60 yer) dolarsa, yalnız klubun akademiyasından gələn 3 nəfərə “yaşıl kart” təqdim oluna bilər. Həmin futbolçular son 12 ay ərzində klubun akademiyasının üzvü olmalıdırlar.

6. I Liqa komandaları mövsüm ərzində maksimum 35 futbolçu sifariş edə bilərlər. I Liqa klubları mövsüm ərzində maksimum 7 legioner oyunçu sifariş edə bilərlər. 35 nəfərlik limit dolarsa, yalnız klubun akademiyasından gələn və son 12 ayda klubun akademiyasının üzvü olan 3 nəfərə “yaşıl kart” təqdim oluna bilər. Legioner rüsumu ilə bağlı ödəniş həyata keçirilmədən futbolçunun sifarişi aparılmır.

7. Premyer Liqa və I Liqa klubları və Əvəzedicilər Liqası komandaları sənədləri yarışın startına 1 ay qalmış təqdim etməyə başlamalıdırlar. Sənədlər PFL-ə düzgün təqdim edildikdən sonra buna əsasən futbolçu, məşqçi və inzibati heyətin siyahısı öz əksini klubun protokolunda tapır. Bu protokol komandanın yekun sifariş vərəqidir. Sifariş vərəqini dolduran klub oyunçuların sağlamlıq arayışını da əlavə etməlidir. Sağlamlıq arayışı futbolçunun sifariş

tarixindən maksimum 3 ay öncə alınmalıdır. Futbolçu mövsümün gedişində, eləcə də transfer pəncərəsi zamanı klubunu dəyişərsə, yeni klubu onun yeni sağlamlıq arayışını təqdim etməlidir. Sağlamlıq arayışı yalnız Azərbaycan dilində olmalı və yalnız oyunçunu sifariş edən klubun adına verilməlidir. Arayış yalnız Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən qeydiyyata alınmış (lisenziya verilmiş) səhiyyə müəssisələrindən alınmalıdır. Ehtiyac yaranarsa, klublar PFL-ə sifariş verilən oyunçu üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş təhlükəli yoluxucu xəstəliyinin olmamasını təsdiq edən sənəd təqdim etməlidirlər.

8. Müqaviləsinə xitam verilən və adı sifariş vərəqindən çıxarılan futbolçu və ya rəsmi şəxs yenidən sifariş olunarsa, sifariş vərəqində növbəti yeri tutur və müqaviləsi yenidən PFL-ə təqdim olunmalıdır.

9. Bir şəxs PFL-in bayrağı altında keçirilən yarışlarda eyni vaxtda futbolçu və ya rəsmi şəxs kimi yalnız bir statusda və yalnız bir klubda qeydiyyatda ola bilər.

10. Sənədləşmə işləri ilə bağlı meydana çıxa biləcək digər məsələləri klublar PFL ilə dəqiqləşdirməlidir.

11. Bütün liqalarla bağlı tələblər sənədlər əsasında müəyyənləşir və PFL tərəfindən müraciət edən klublara təqdim olunur.

12. Futbolçuların icarə müqavilələri zamanı aşağıdakı qaydalar nəzərə alınmalıdır:

- İcarə müqaviləsinin şərtlərini, xüsusən onun müddətini və maliyyə şərtlərini müəyyən edən yazılı müqavilə tələbi;
- Minimum icarə müddəti iki qeydiyyat dövrü arasındakı müddət, maksimum isə bir ildir.
- Artıq ikinci kluba icarəyə verilmiş peşkar oyunçunun sub-icarəyə verilməsi qadağandır.
- Eyni klublar arasında mövsüm ərzində icarələrin sayına məhdudiyyət: mövsüm ərzində istənilən vaxt bir klubdan digərinə maksimum üç oyunçu (peşəkar) icarəyə verilə bilər və bir klubdan maksimum üç oyunçu (peşəkar) icarəyə götürülə bilər.

Bir klubda mövsüm ərzində maksimum 6 oyunçu (peşəkar) icarəyə verilə və 6 oyunçu (peşəkar) icarəyə götürülə bilər.

* Mövsümün əvvəlində 21 və daha gənc yaşda olan, bu müddət ərzində müxtəlif dövrlərdə 3 mövsüm həmin klubda çıxış

etmiş oyunçular bu məhdudiyyətlərdən azaddırlar. Məqsəd gənc oyunçuları inkişaf etdirmək, balanslı rəqabəti təşviq etməkdir.

13. Futbolçunu icarəyə verən klub həmin futbolçunun müqavilə ilə məxsus olduğu kluba qarşı oynamasına qadağa qoya bilməz. Belə bir bəndin qeyd olunduğu icarə müqaviləsi PFL tərəfindən qəbul olunmur.

14. Futbolçu və ya rəsmi şəxsin şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu sifariş olunan vaxtda etibarlıdırsa, həmin futbolçu və ya rəsmi şəxs mövsüm ərzində eyni statusda oyunlarda iştirak edə bilər.

**18. Premyer Liqa, I Liqa və Əvəzedicilər Liqasında məşqçi işləmək üçün tələblər**

1. Azərbaycan Premyer Liqasında, I Liqasında və Əvəzedicilər Liqasında müvafiq məşqçilik lisenziyası olan həm Azərbaycan, həm də xarici ölkə vətəndaşları məşqçilik funksiyasını yerinə yetirə bilərlər.

2. Azərbaycan Premyer Liqasında (klub avrokuboklara lisenziya iddiaçısı deyilsə) baş məşqçi işləmək üçün minimum qüvvədə olan UEFA A kateqoriyası tələb olunur.

3. Azərbaycan Premyer Liqasında (klub avrokuboklara lisenziya iddiaçısı deyilsə) baş məşqçinin köməkçisi işləmək, eləcə də məşqçilər korpusunda yer almaq üçün minimum qüvvədə olan UEFA B kateqoriyası tələb olunur.

4. Azərbaycan Premyer Liqasında (klub avrokuboklara lisenziya iddiaçısı deyilsə) fiziki hazırlıq üzrə məşqçi işləmək üçün minimum qüvvədə olan UEFA B kateqoriyası və ya müvafiq universitetin diplomu və ya şəxsin fiziki hazırlıq kursunu bitiriməsi ilə bağlı müvafiq sertifikat və ya bu sahədə ali təhsil sənədi tələb olunur.

5. Azərbaycan Premyer Liqasında (klub avrokuboklara lisenziya iddiaçısı deyilsə) qapıçılar üzrə məşqçi işləmək üçün minimum qüvvədə olan qapçıların UEFA B kateqoriyası və ya məşqçinin B lisenziyası tələb olunur. Bunlar olmadığı təqdirdə məşqçinin AFFA və ya digər assosiasiya tərəfindən təşkil olunmuş xususi kursu bitirməsi ilə bağlı diplom tələb olunur.

6. Əgər klub avrokuboklara lisenziya iddiaçısıdırsa, baş məşqçisinin qüvvədə olan UEFA PRO, baş məşqçinin köməkçisinin qüvvədə olan UEFA A lisenziyası olmalıdır. Məşqçilər korpusuna

daxil olan digər məşqçilərin minimum qüvvədə olan UEFA B lisenziyası olmalıdır.

7. Avrokubok lisenziyası iddiaçısının qapıçılar üzrə məşqçisinin ən azı UEFA-nın məşqçilik üzrə etibarlı B lisenziyası və ya UEFA-nın qapıçı məşqçilər üzrə qüvvədə olan B lisenziyası və ya AFFA və ya digər milli assosiasiya tərəfindən təşkil olunmuş xüsusi kursları bitirdikdən sonra verilmiş qapıçıların hazırlığı üzrə məşqçi lisenziyası və ya sertifikatı olmalıdır.

8. Avrokubokda iştirak etmək üçün UEFA lisenziyası iddiaçısının fiziki hazırlıq üzrə məşqçisinin ən azı UEFA-nın məşqçilik üzrə qüvvədə olan B lisenziyası və ya AFFA və ya digər milli assosiasiya tərəfindən təşkil olunmuş xüsusi kursları bitirməsinə dair verilmiş fiziki hazırlıq üzrə məşqçi lisenziyası və ya sertifikatı və ya bu sahədə ali təhsil sənədi olmalıdır.

9. Azərbaycan I Liqasında və Əvəzedicilər Liqasında baş məşqçi işləmək üçün minimum qüvvədə olan UEFA B kateqoriyası tələb olunur.

10. Azərbaycan I Liqasında və Əvəzedicilər Liqasında baş məşqçinin köməkçisi işləmək və ya məşqçilər korpusunda yer almaq üçün minimum qüvvədə olan UEFA C kateqoriyası tələb olunur.

11. Azərbaycan I Liqasında və Əvəzedicilər Liqasında fiziki hazırlıq üzrə məşqçi işləmək üçün minimum qüvvədə olan UEFA C kateqoriyası və ya müvafiq universitetin diplomu və ya AFFA və ya digər milli assosiasiya tərəfindən təşkil olunmuş xüsusi kursları bitirməsinə dair verilmiş fiziki hazırlıq üzrə sertifikat tələb olunur.

12. Azərbaycan I Liqasında və Əvəzedicilər Liqasında qapıçılar üzrə məşqçi işləmək üçün minimum qüvvədə olan UEFA C kateqoriyası və ya məşqçinin AFFA və digər milli assosiasiya tərəfindən keçirilmiş xüsusi kursu bitirməsi ilə bağlı sertifikat tələb olunur.

13. Əgər I Liqada iştirak edən klub növbəti mövsüm Premyer Liqada iştirak üçün lisenziya sənədlərini təqdim edirsə, o zaman klubun məşqçi heyətinin lisenziyaları müvafiq yarışın tələblərinə uyğunlaşdırılmalıdır.

14. Əgər müraciət edən klubun məşçilər korpusunda yer alan şəxsin kateqoriyasının vaxtı bitərsə, eləcə də onun kateqoriyası tələblərə uyğun deyilsə, məşqçi bununla bağlı AFFA-nın müvafiq departamentindən hazırda kateqoriyasını yeniləməsi və

ya bununla bağlı müraciət etməsi ilə bağlı rəsmi sənəd təqdim etməlidir. Müvafiq departamentin rəsmi müraciətindən sonra PFL məşqçinin qeydiyyata alınıb-alınmayacağını müzakirəyə çıxara bilər.

15. Klub mövsümün gedişində baş məşqçisi ilə yollarını ayırarsa, lisenziyalaşdırma qaydalarına uyğun olaraq verilmiş müddət ərzində yeni baş məşqçisini təqdim etməlidir. Bu müddətdə komandanı oyunlara müvəqqəti olaraq çıxaran məşqçi eyni zamanda mətbuat konfranslarında iştirak etmək hüququna malikdir. Mövsümün gedişində baş məşqçisi ilə yollarını ayıran klub lisenziyalaşdırma qaydalarına uyğun olaraq verilmiş müddət ərzində yeni baş məşqçisini təqdim etmirsə, məsələ AFFA İntizam Komitəsində müzakirəyə çıxarılır.

## 19. Sarı və qırmızı vərəqələrlə bağlı anlayışlar

1. Futbolçular oyundan öncə, oyun zamanı, fasilədə, eləcə də oyundan sonra hakim tərəfindən sarı və qırmızı vərəqə ilə cəzalandırıla bilərlər.

2. Premyer Liqa, I Liqa və Əvəzedicilər Liqasında futbolçu hər 4-cü sarı vərəqədən sonra növbəti oyunu buraxır.

3. Azərbaycan Kuboku yarışında futbolçu hər 2-ci sarı vərəqədən sonra növbəti oyunu buraxır. Finaldan əvvəl sarı vərəqələrə görə cəzalar sıfırlanır (həm futbolçular, həm də rəsmi şəxslərlə bağlı).

4. Futbolçunun passivində olan vərəqələr növbəti oyuna tətbiq olunur (nümunə: əgər futbolçu 10-cu turda 4-cü sarı vərəqəsini alıbsa və komanda bundan sonra 5-ci turdan təxirə salınmış oyuna çıxmalıdırsa, o zaman həmin futbolçu oyunu buraxmalıdır).

5. Futbolçunun passivində olan sarı vərəqələr növbəti mövsüm üçün sıfırlanır.

6. Futbolçular oyundan öncə, oyun zamanı, fasilədə, eləcə də oyundan sonra hakim tərəfindən qırmızı vərəqə ilə cəzalandırıla bilərlər. Oyundan öncə qırmızı vərəqə almış futbolçu protokolda qeyd olunmuş hər hansı bir oyunçu ilə əvəzlənməlidir (bu dəyişiklik əvəzetmə limitinə təsir etmir). Əgər futbolçu 2-ci sarı vərəqədən sonra qırmızı vərəqə alırsa, bu zaman o, avtomatik növbəti oyun üçün cəzalı duruma düşür, sarı vərəqələr isə “silinir”. Əgər futbolçu sarı vərəqə aldıqdan sonra birbaşa qırmızı vərəqə də alarsa, onun

sarı vərəqəsi qüvvədə qalır.

7. Oyundan əvvəl, oyun zamanı, fasilədə və oyundan sonra qırmızı vərəqə alan futbolçu meydandan kənarlaşdırılaraq paltardəyişmə otağına göndərilməlidir. Əgər o, paltardəyişmə otağını tərk etmək qərarı verərsə, tam şəkildə “Zona-1” ərazisindən uzaqlaşdırılmalıdır. Onun tribunada və ya “sky-box” otaqlarında oturmasına icazə verilir. Qırmızı vərəqə alan futbolçu və ya klub rəsmisi oyundan sonra dəhlizə düşməyə, meydana çıxmağa, hakimlə mübahisə etməyə, iğtişaş salmağa çalışarsa, bu barədə AFFA nümayəndəsi və hakimlər raportlarında qeyd etməlidirlər. Belə halda məsələyə İntizam Komitəsində baxılacaq.

8. PFL bayrağı altında keçirilən turnirlərdə alınan vərəqələr yalnız cəza tədbirlərinin görüldüyü turnirə tətbiq olunur. Xüsusi hallarda AFFA İntizam Komitəsi cəzanın bütün turnirlərə şamil olunmasına qərar verə bilər.

9. Qırmızı vərəqə alan futbolçunun neçə oyunluq cəzalandırıldığı AFFA İntizam Komitəsinin iclasından sonra rəsmiləşir. Cəzalar növbəti oyuna və ya oyunlara tətbiq olunur (nümunə: əgər futbolçu 10-cu turda qırmızı vərəqə alıbsa və komanda bundan sonra 5-ci turdan təxirə salınmış oyuna çıxmalıdırsa, o zaman həmin futbolçu təxirə salınmış oyunu buraxmalıdır).

10. Yuxarıda qeyd olunan bütün anlayışlar yarışlar üzrə eyni zamanda komandaların rəsmi şəxsləri üçün də keçərlidir.

11. Oyunçuların və ya rəsmi şəxslərin aldığı qırmızı vərəqələrə görə cəzalar növbəti mövsümə və ya mövsümlərə keçir. Cəza futbolçunun passivində qalırsa, onun cəriməsi cəzanın verildiyi dövrdə futbolçunun çıxış etdiyi klubun adına yazılır.

12. Əgər baş hakim oyunun gedişində səhvən bir şəxsin əvəzinə digər şəxsə vərəqə göstərirsə (şəxslərin səhv salınması) və bu məqam oyunun videoyazısında açıq-aşkar görünürsə, PFL verilmiş sanksiyanı dəyişdirmək hüququna malikdir.

13. Əgər oyun penaltilər seriyasına qədər gedərsə, o zaman futbolçunun oyunun əsas və əlavə vaxtında aldığı sarı vərəqələr sıfırlanır. Penaltilər seriyası zamanı bir komandanın futbolçusu iki sarı vərəqə və ya birbaşa qırmızı vərəqə alaraq qovulursa, o zaman 2-ci komanda idman prinsipləri əsas götürülərək penalti vuran şəxslərin sayını bir vahid azaltmalıdır. Əgər bu sanksiya qapıçıya

tətbiq olunursa, o zaman qapıçını sahə oyunçularından biri əvəzləyir və 2-ci komanda penalti vuranların sayını bir vahid azaldır.
Əgər penalti zərbələrinin yerinə yetirilməsi zamanı və ya ondan əvvəl qapıçı oyuna davam etmək iqtidarında olmazsa və onun komandası maksimal sayda əvəzetmədən istifadə etməyibsə, o, ehtiyat oyunçu ilə, yaxud oyunçuların sayını bərabərləşdirmək üçün heyətdən çıxarılmış oyunçu ilə əvəz edilə bilər, lakin bundan sonra zərbələrin yerinə yetirilməsində iştirak edə bilməz, həmçinin zərbə yerinə yetirə bilməz. Əgər qapıçı artıq zərbəni yerinə yetiribsə, onu əvəz edən oyunçu zərbələrin növbəti dövrəsi başlayana qədər zərbə yerinə yetirə bilməz.

14. Əgər baş hakim oyunun gedişində sarı vərəqə göstərdiyi halda bunu oyunun protokolunda qeyd etmirsə, məsələ PFL-in tələbi ilə hakim tərəfindən oyundan sonra yekun protokolda qeyd olunur.

15. Əgər hakim ikinci sarı vərəqə verdiyi halda futbolçunu meydandan qovmağı unudursa və ya bir neçə dəqiqədən sonra səhvə yol verdiyini xatırlayıb gec də olsa, həmin futbolçunu meydandan qovursa, bu məsələ PFL-də müzakirəyə çıxarılır, hakimlə bağlı ölçü götürmək üçün AFFA Hakimlər Komitəsinə məlumat verilir. İdman prinsipləri nəzərə alınaraq qarşı tərfin yazılı müraciətindən sonra PFL bu halın baş verdiyi oyunla bağlı müvafiq qərarlar qəbul etmək iqtidarındadır.

16. PFL-in bayrağı altında keçirilən yarışlar üçün başqa ölkələrin yarışlarında qeydə alınan intizam tədbirləri (qırmızı vərəqələr) nəzərə alınmır. Bir xarici ölkənin daxili yarışında alınmış qırmızı vərəqə yalnız həmin ölkənin yarışlarına şamil edilir.
Lakin FIFA qaydalarına əsasən, əvvəlki assosiasiya tərəfindən oyunçuya tətbiq edilən, lakin tam çəkilməmiş, 4 oyuna qədər və ya 3 ayadək olan istənilən intizam cəzası, oyunçunun qeydiyyata alındığı yeni assosiasiya tərəfindən icraya yönəldilir. Beynəlxalq Transfer Sertifikatı verərkən əvvəlki assosiasiya yeni assosiasiyanı bu barədə məlumatlandırır. Oyunçuya tətbiq edilən 4 oyundan və 3 aydan çox olan tam çəkilməmiş cəza yalnız FIFA-nın İntizam Komitəsi tərəfindən belə cəzanın bütün dünya üzrə hüquqi qüvvəsi olduğunun bildirildiyi halda yeni assosiasiya tərəfindən icraya yönəldilir. Bu halda da Beynəlxalq Transfer Sertifikatı verərkən əvvəlki assosiasiya yeni assosiasiyanı bu barədə məlumatlandırır.

17. Oyunçu kimi intizam cəzası ilə üzləşmiş şəxsin

passivində qalan cəzaları onun statusunu dəyişəcəyi (məşqçi, klub idarəçisi, menecer və s. olacağı) təqdirdə ləğv olunur.

18. Klublar sarı və qırmızı vərəqələrə görə ödənişləri həyata keçirməsə, cəza bitsə belə, cəzalı futbolçuları PFL-in elektron baza sistemində növbəti oyunun protokoluna salmaq mümkün olmayacaq.

19. Klublar rəsmi şəxslərin və futbolçuların aldıqları sarı və qırmızı vərəqələrə, intizam tədbirlərinə görə AFFA İntizam Məcəlləsinə əsasən cərimələnirlər. Klublara ümumi vərəqə sayına görə tətbiq olunan cəzalar zamanı rəsmi şəxslərə verilmiş vərəqələr də nəzərə alınır.

**20. Lisenziyalaşdırma**

1. Klublar Premyer Liqada və avrokuboklarda iştirak üçün lisenziya şərtlərinə cavab verməlidirlər.

2. Premyer Liqada iştirak edən klub növbəti mövsüm üçün Premyer Liqada iştirak etmək hüququnu verən lisenziyanı almadığı halda, o, növbəti mövsümdə Premyer Liqada iştirak etmək hüququndan məhrum edilir və avtomatik olaraq I Liqaya düşür.

3. I Liqada oynayan və idman nəticələrinə əsasən Premyer Liqada iştirak etmək hüququ əldə edən klub bunun üçün müvafiq lisenziyanı almadığı halda, onun əvəzinə həmin liqada Premyer Liqada iştirak etmək hüququ verən lisenziya almış və ən yüksək idman nəticələrinə malik olan klub Premyer Liqada iştirak etmək hüququ əldə edir.

4. Lisenziyalaşdırma qrupunun meneceri direktiv orqanın qərarını alır. O, direktiv orqan tərəfindən çıxarılmış qərar əsasında Premyer Liqada iştirak etmək səlahiyyəti olan lisenziat klubların siyahısını hazırlayır. Lisenziat klubların siyahısı lisenziya verilməsi barədə direktiv orqanın son və qəti qərarından sonrakı 3 iş günü ərzində PFL-ə göndərilir.

5. UEFA-nın klub yarışlarına lisenziya alan klub avtomatik olaraq həmin mövsüm üçün Premyer Liqada oynamaq hüququnu verən lisenziyanı əldə edir.

**21. Dopinq-test prosedur qaydaları**

1. Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) AFFA və PFL bayrağı altında keçirilən oyunlarda dopinq-test proseduru

həyata keçirmək hüququna malikdir.

2. AFFA nümayəndəsi dopinq nəzarəti həkiminin gəlməsi məlumatını aldıqda onunla birgə dopinq-test otağına gedir.

3. Bununla bağlı klublara və klublarda təmsil olunan həkimlərə məlumat verilir.

4. Dopinq-test otağına gələn nümayəndələrlə yanaşı, AFFA nümayəndəsi və onun müəyyənləşdirəcəyi şəxslər daxil ola bilər.

5. Püşkatma zamanı protokola uyğun olaraq hər iki komandanın oyunçularının nömrələrinə uyğun jetonlar masanın üzərinə düzülür. Bu zaman jetonlarla nömrələr üst-üstə düşməlidir.

6. AFFA nümayəndəsi, dopinq nəzarət həkimi və hər iki komandanın həkimi təyin olunan vaxtda dopinq-test otağına gəlməli və püşkatmada iştirak etməlidirlər.

7. Oyun başa çatdıqdan dərhal sonra püşkdə adı çıxmış oyunçular dopinq-test otağına gəlməlidirlər.

8. Püşkdə adı çıxan oyunçu zədə və ya digər səbəbdən stadionu tərk etmək məcburiyyətində qalıbsa, o zaman püşkdə adı çıxan digər oyunçular testə cəlb olunurlar.

9. Dopinq nəzarəti FIFA qaydalarına uyğun aparılır.

10. Dopinq-test otağı standartlara cavab verməli və oyun günü minimum zəruri ləvazimatlarla – masa, qazsız su, zibil qabı, oyunun protokolu və s. təchiz olunmalıdır. Dopinq-test otağının daxilində və ya yaxınlığında sanitar qovşaq olmalıdır.

11. AMADA-nın dopinq-test otağında başqa tələbləri də ola bilər.

12. Dopinq nəzarəti üçün gələn şəxslərin stadionun ərazisində maneəsiz hərəkətləri təmin olunmalıdır.

13. Oyunun AFFA nümayəndəsi dopinq-testin sonunu gözləmək məcburiyyətində deyil.

14. Dopinq-test prosedurları ilə bağlı Əsasnamədə qeyd olunmayan, meydana çıxa biləcək digər hallarla bağlı AFFA nümayəndəsinin iştirakı ilə dopinq-test prosedurunu həyata keçirən şəxs AMADA-nın rəsmi tələblərinə uyğun olaraq əlavə müraciətlər edə bilər. Bu tələblər qeyd-şərtsiz yerinə yetirilməlidir. Əks halda, müvafiq addımlar atılacaq.

**22. Video Köməkçi Hakim (VAR)**

1. Azərbaycan Premyer Liqası, Azərbaycan Kuboku və Premyer Liqa, I Liqa və II Liqa uğrunda pley-off oyunlarında, ehtiyac

yaranarsa, I Liqa və II Liqa oyunlarında VAR sistemi tətbiq olunur. Azərbaycan Kubokunda I təsnifat mərhələləsi istisnadır, stadion infrastrukturu imkan verəcəyi təqdirdə tətbiq oluna bilər.

2. Hakim matçdakı qərarların/insidentlərin yalnız dörd kateqoriyası ilə bağlı VAR-ın köməyinə müraciət edə bilər:

a) Qolun qeydə alınıb-alınmaması;

b) 11 metrlik zərbənin təyin edilib-edilməməsi;

c) Birbaşa qırmızı vərəqə (ikinci sarı vərəqə/xəbərdarlıq nəzərdə tutulmur);

ç) Oyunçunun səhv salınması (hakim qaydanı pozan komandanın yanlış oyunçusuna xəbərdarlıq etdikdə və ya onu qovduqda). Əgər hakim qayda pozuntusunu qeydə alır və qaydanı pozan komandanın yanlış oyunçusuna sarı və ya qırmızı vərəqə göstərirsə, qaydanı pozan oyunçunun kimliyi təkrara baxış vasitəsilə dəqiqləşdirilə bilər; qayda pozuntusunun özü qol, penalti insidenti və ya birbaşa qırmızı vərəqə ilə bağlı deyilsə, qayda pozuntusunun təkrarına baxıla bilməz.

3. Hakim hər zaman qərar qəbul etməlidir, yəni hakimin heç bir qərar verməyib VAR-a müraciət etməsinə icazə verilmir; təsdiqini tapmış qayda pozuntusundan sonra oyunun davam etdirilməsi qərarına baxış keçirilə bilər.

4. Videotəkrar qərarın aşkar səhv olduğunu aydın şəkildə göstərmədiyi halda, hakimin verdiyi ilk qərar dəyişməz olaraq qalır.

5. Videotəkrar izlənilərkən oyunçular və komandanın rəsmi şəxsləri hakimi əhatə etməməli, baxış prosesinə və ya yekun qərara təsir etməyə cəhd etməməlidirlər.

6. Şəffaflığı təmin etmək məqsədilə hakim baxış prosesi zamanı görünən yerdə dayanmalıdır.

7. İnsidentdən sonra oyun davam etdirilirsə və daha sonra baxış keçirilirsə, insidentdən sonrakı müddət ərzində görülmüş/tələb olunan hər hansı intizam tədbiri, hətta ilkin qərar dəyişdirilərsə belə, ləğv edilmir (perspektivli hücumun qarşısını almağa və ya ona mane olmağa və ya rəqibi aşkar qol vurmaq imkanından məhrum etməyə görə xəbərdarlıq yaxud qovulma istisna olmaqla).

8. Əgər oyun dayandırılmış və bərpa edilmişsə, yanlış oyunçuya göstərilmiş vərəqə və yaxud təcavüzkar davranış, tüpürmək, dişləmək və ya həddən artıq təhqiredici və ya nalayiq hərəkət(lər) istisna olmaqla, hakim videotəkrara müraciət edə bilməz.

9. VAR hər bir vəziyyəti/qərarı avtomatik olaraq yoxlayacağından məşqçilərin və ya oyunçuların təkrara baxılmasını tələb etməsinə ehtiyac yoxdur.

10. VAR matçı video əməliyyat otağında izləyir. Video köməkçi hakimin köməkçisi (AVAR) və videotəkrar operatoru (RO) ona kömək edir.

11. Yalnız səlahiyyətli şəxslərin video əməliyyat otağına daxil olmasına və ya VAR hakimi, onun köməkçisi və videotəkrar operatoru ilə ünsiyyət qurmasına icazə verilir.

12. Əgər epizodun yoxlanması məqsədilə oyunun bərpasının ləngidilməsi tələb olunursa, hakim nümayişkaranə şəkildə barmağını qulaqcığına tutaraq digər əlini/qolunu açmaqla işarə verir; epizodun yoxlanmasının başa çatmasına qədər hakim bu işarəni verməkdə davam edir. Bu işarə bildirir ki, hakim (video köməkçi hakim və ya matçın digər hakimi tərəfindən verilən) məlumatı dinləyir.

13. Baxış prosesinin sonunda hakim "televizor ekranı" işarəsini verməli və dərhal sonra yekun qərarı bildirməlidir.

14. Videotəkrara baxış prosesi mümkün olduğu qədər effektiv şəkildə tamamlanmalıdır, lakin yekun qərarın dəqiqliyi onun tez verilməsindən daha önəmlidir. Bu səbəbdən və bəzi vəziyyətlər çoxsaylı baxış keçirilən qərarların/insidentlərin toplusu olduğu üçün videotəkrara baxış prosesi üçün heç bir vaxt məhdudiyyəti yoxdur.

15. Əsas heyətin oyunçuları, ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri videotəkrara baxış prosesinə, həmçinin yekun qərar verilərkən müdaxilə etməyə cəhd etməməlidirlər;

16. Videotəkrara baxış zamanı, oyunçular oyun meydanında qalmalıdır; ehtiyat oyunçular və komandanın rəsmi şəxsləri oyun meydanından kənarda qalmalıdırlar;

17. Videotəkrara baxılmasını qəti şəkildə tələb edən və ya videotəkrara baxış zonasına daxil olan əsas heyətin oyunçusuna, ehtiyat oyunçuya, əvəz edilmiş oyunçuya, komandanın rəsmi şəxsinə rəsmi xəbərdarlıq edilməlidir (sarı vərəqə göstərilməlidir);

18. Video əməliyyat otağına daxil olan əsas heyətin oyunçusu, ehtiyat oyunçu, əvəz edilmiş oyunçu və ya komandanın rəsmi şəxsi qırmızı vərəqə ilə cəzalandırılmalıdır.

19. Vəzifəsini yerinə yetirmək iqtidarında olmayan VAR, AVAR və ya videotəkrar operatoru yalnız həmin funksiya üçün ixtisaslı olan şəxs tərəfindən əvəz edilə bilər. VAR və ya videotəkrar

operatoru üçün ixtisaslı bir əvəzedici tapılmazsa, matç VAR-lardan istifadə etmədən keçirilməli/davam etdirilməlidir. AVAR üçün ixtisaslı bir əvəzedici tapılmazsa, oyunun yalnız VAR və videotəkrar operatorunun iştirakı ilə keçirilə/davam etdirilə biləcəyi ilə bağlı hər iki komandanın yazılı razılığının olduğu müstəsna hallar istisna olmaqla, matç VAR-lardan istifadə etmədən keçirilməli/davam etdirilməlidir

20. VAR-la bağlı bütün digər məqamlar VAR protokolu ilə tənzimlənir.

21. VAR sisteminin mövcud olmaması və ya işləməməsi oyunun baş tutmaması və ya davam etməməsi üçün əsas deyil.

## 23. Azarkeşlərin stadionda davranış qaydaları

1. Stadiona daxil olmaqla, azarkeşlər bu qaydaları qəbul edir və stadion ərazisində olduğu müddətdə bütün müddəalara əməl edilməsini öhdəsinə götürürlər.

2. Stadion ərazisinə giriş aşağıda qeyd edilən sənədlərdən birinin təqdim edilməsi ilə həyata keçirilir:

- Oyun üçün nəzərdə tutulmuş təkistifadəlik bilet;
- İllik abunə biletləri;
- Xüsusi dəvətnamə;
- PFL tərəfindən mövsümlük akkreditasiya vərəqəsi;
- Nəqliyyat vasitələrinin stadionun ərazisinə, təyin edilmiş dayanacağa daxil olması üçün PFL tərəfindən verilmiş mövsümlük avtomobil buraxılışı, habelə zəruri hallarda həmin şəxsin şəxsiyyətini sübut edən sənəd (şəxsiyyət vəsiqəsi).

3. Azarkeşlərin stadiona girişinə matçın başlamasından 90 dəqiqə əvvəl icazə verilir. Matçın başlanma vaxtı PFL-in rəsmi saytı, həmçinin sosial şəbəkə hesabları vasitəsi ilə elan edilir.

4. Azarkeşlər biletlərə, abunə vərəqələrinə və ya ona bərabər tutulan sənədlərə əsasən stadionun tribunalarında təyin edilmiş yerlərini almalıdırlar.

5. Azarkeşlik etdiyi futbol klubunu, ayrı-ayrı futbolçuları və məşqçiləri qanunla qadağan olmayan bütün vasitələrlə, davranışlarla dəstəkləmək azarkeşlərin hüququdur.

6. Azarkeşlərin stadiona dəstək məqsədi ilə aşağıdakıları gətirmələrinə icazə verilir:

- Rəsmi klub bayrağı və ya simvolu;

- Əvvəlcədən təsdiq olunmuş, alova davamlı materialdan hazırlanmış və tutacaqsız bannerlər.

7. Hər bir azarkeşin oyun zamanı yaşadığı problem və ya azarkeşlik etdiyi klub haqqında təklif və iradlarını bildirməsi üçün klubun təyin etdiyi azarkeşlərlə əlaqələndirici şəxs vəzifəsində çalışan nümayəndəyə birbaşa olaraq müraciət etmək hüququ var.

8. Azarkeşlər stadion ərazisində ictimai asayiş və davranış qaydalarına riyat etməlidirlər.

9. Təhlükəsizliyin təmin olunması məqsədi ilə hüquq-mühafizə orqanlarının əməkdaşlarının şəxsi yoxlanış aparmaq hüququ var. Vətəndaşların şəxsi baxışını və onların üzərindəki əşyaların yoxlanılmasını ictimai asayişi təmin edən şəxslər xüsusi texniki vasitələrlə həyata keçirirlər. Şəxsi baxış yalnız həmin şəxslə eyni cinsdən olan şəxslər tərəfindən həyata keçirilə bilər.

10. Azarkeşlər öz və digər klub (və ya ölkənin) himnlərinə, bayraqlarına və rəmzlərinə hörmət göstərməlidirlər. Stadionun və ya klubların əmlaklarından onlara zərər vermədən, ehtiyatla istifadə edilməlidir. Digər azarkeşlərə, stadion işçilərinə, polis və mühafizə xidmətini aparan şəxslərə hörmət göstərilməlidir.

11. Azarkeşlər stadion ərazisində təhlükəsizlik qaydalarana riayət etməyən və ya hər hansısa şübhə doğuran şəxslərə rast gəldikdə dərhal hüquq-mühafizə orqanlarının əməkdaşlarına məlumat verməlidir.

12. Təhlükəsizliyə nəzarət edən qurum və əməkdaşların tapşırıqlarına riayət olunmalıdır.

13. Fövqaladə hallar zamanı stadionun təxliyə planına uyğun olaraq təhlükəsizliyə cavabdeh olan şəxslərin tapşırıqlarına riayət olunmalıdır.

14. Ehtiyac yaranacağı təqdirdə, əvvəlcədən stadionda elan olunmaqla qonaq komandanın azarkeşləri hüquq-mühafizə orqanlarının göstərişi əsasında stadion ərazisini matç başa çatdıqdan 30 dəqiqə sonra tərk etməlidirlər.

15. Sərxoşluq vəziyyətində olan, habelə narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının, toksik təsir göstərən maddələrin təsiri altında olan şəxslərin stadiona daxil olması qadağandır. Narkotik və ya psixotropik maddələrin stadion ərazisinə keçirilməsi hər bir kəs üçün qadağan olunur.

16. Kütləvi idman tədbirlərinin keçirilməsi qaydalarının

pozulmasına yönəlmiş hərəkətlərə yol verən, ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsinə maneçilik törədən, digər şəxsləri bu cür hərəkətlərə təhrik edən şəxslərin stadiona daxil olması qadağandır.

17. Futbol matçı zamanı xidməti vəzifələrini yerinə yetirən şəxslərə, tədbir iştirakçılarına və tamaşaçılara hər hansı formada mane olmaq, ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyətin həyata keçirilməsinə imkan verməmək qadağandır.

18. Stadion ərazisində aşağıda qeyd olunan davranışlar qadağan edilir:

- Stadion ərazisində təyin olunmuş yerlər xaricində tütün məmulatlarından və ya elektron siqaretlərdən istifadə etmək;
- Meydana, oyunçulara, hakimlərə əşyalar atmaq;
- Növündən və təyinatından asılı olmayaraq, pirotexniki vasitələrdən istifadə etməklə məşəl və ya od yandırmaq;
- Stadion ərazisində kobud, təhqiredici ifadələr səsləndirmək, təhqiredici mahnı və ya şüarlar oxumaq, digərlərinə hədə-qorxu gəlmək;
- Oyunçulara, hakimlərə, oyun nümayəndələrinə və digər azarkeşlərə qarşı dini, irqi, həmçinin siyasi qınaq yaratmaq;
- Stadion ərazisində akkreditasiya və ya biletdə qeyd olunmayan otaqlara, yerlərə daxil olmaq;
- Pilləkanlarda və ya mühafizə xidmətinin əməkdaşları üçün təyin edilmiş yerlərdə dayanmaq;
- Heyvanlarla stadion ərazisinə daxil olmaq;
- Üzü maska ilə gizlətmək. Üzü maska ilə gizlədən şəxslər stadion ərazisinə buraxılmır.
- Klublara, stadionlara, stadion əməkdaşlarına, rəsmilərə və onların nəqliyyat vasitələrinə ziyan vurmaq;
- Oyundan öncə, oyun zamanı və ya oyundan sonra meydana daxil olmaq və ya buna cəhd etmək;
- Yaşı 12-dən aşağı olan uşaqların stadiona valideynsiz girişi qadağandır.

19. Stadion ərazisinə aşağıdakı əsyaları gətirmək qadağan edilir:

- Bütün növ alkoqollu içkilər;
- Narkotik vasitələr, psixotrop maddələr, onların analoqları,

toksik təsir göstərən maddələr;

- Soyuq, odlu, qaz və digər tipli silahlar, silahların ayrı-ayrı hissələri, partlayıcı maddələr və döyüş sursatları, habelə soyuq, odlu, qaz və digər silahlara, partlayıcı maddələrə və döyüş sursatlarına oxşar vasitələr;
- Pirotexniki vasitələr;
- İnsanların həyatına və sağlamlığına təhlükə törədə, fiziki və hüquqi şəxslərə maddi ziyan vura, kütləvi idman tədbirlərinin keçirilməsinə maneələr yarada bilən xüsusi hazırlanmış və ya uyğunlaşdırılmış vasitələr;
- Plastik qablaşdırılma istisna olmaqla, digər qablaşdırmalarda olan içkilər. Plastik qablaşdırılmada gətirilən içkilərin qapağı girişdə açılmalıdır.
- Matç zamanı meydana atılması mümkün olan əşyalar;
- Tüstü bombaları, gözyaşardıcı qaz silindirləri və bu kimi əşyalar;
- Yanan, partlayıcı, zəhərli və aşındırıcı və iyli maddələr;
- Radioaktiv maddələr;
- Lazer cihazları;
- Üzərində dini, irqi və ya milli təhqirlər əks edilmiş geyimlər;
- Məzmunu ictimai qaydanı, vətəndaşların hüquq və qanuni maraqlarını pozmağa yönəlmiş, eləcə də zorakılığın, irqi, milli və dini ayrı-seçkiliyin, müharibənin təbliği ilə bağlı bayraqlar, emblemlər, simvollar, plakatlar, transparantlar və başqa vasitələr;
- Akreditasiya ilə təmin olunmamış şəxslər üçün peşəkar foto və video cihazları;
- Səsucaldıcı cihazlar və s.

20. Stadionda davranış qaydalarına əməl etmədiyi halda stadion rəhbərliyi, habelə hüquq-mühafizə orqanlarının əməkdaşları bilet dəyəri geri qaytarılmadan azarkeşi stadion ərazisindən kənarlaşdırmaq hüququna malikdir.

21. Qaydaları pozan azarkeşlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyətə cəlb olunurlar.

22. Azarkeşlərin davranışına görə meydan sahibi klub məsuliyyət daşıyır. Azarkeşlərin davranışı ilə bağlı bu Əsasnamədə qeyd olunmayan və meydana çıxa biləcək digər xoşagəlməz hallara görə AFFA İntizam Komitəsinin klublara qarşı intizam tədbiri tətbiq etmək hüququ var.

**24. Xüsusi bənd**

1. Azərbaycan Respublikası ərazisində hansısa fors-major halla bağlı xüsusi rejimlər tətbiq olunarsa, bu zaman futboldakı qaydalar da buna uyğunlaşdırılacaq və bunlar müvafiq qurumlara, eləcə də PFL-in üzvü olan klublara rəsmi tənzimləmələr şəklində göndəriləcək. Bundan əlavə, PFL tərəfindən hazırlanıb təsdiq olunacaq Əsasnaməyə Əlavələr qüvvədə ola bilər.

***Yaranacaq suallarla bağlı müraciət edə biləcəyiniz şəxslər:***

Məlik Həsənov - Peşəkar Futbol Liqasının prezidentinin müşaviri - 050 225 17 85

Aslan Şahgəldiyev - Peşəkar Futbol Liqasının vitse-prezidenti - 050 235 89 55, aslan.shahgaldiyev@pfl.az

Elgiz Abbasov - Peşəkar Futbol Liqasının texniki idman direktoru- 050 262 33 71, elgiz.abbasov@pfl.az

Sənan Abdullayev - Peşəkar Futbol Liqasının media və marketinq direktoru – 050 529 39 20, sanan.abdullayev@pfl.az

Zaur Hacı-Məhərrəmov, Peşəkar Futbol Liqasının icraçı direktoru - 055 511 21 00, zaur.hjm@pfl.az

Elektron müraciət üçün ünvan: info@pfl.az

**Rekvizitlər:**
**PFL VÖEN: 2001282481**
**Hesab nömrəsi: AZ41IBAZ38090019449330402120**
**Bankın VÖEN-i: 9900001881**
**Bankın kodu: 805250**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi, 21k

# MÜNDƏRİCAT


1. Məqsəd və vəzifələr..........................................................3
2. Peşəkar Futbol Liqasının səlahiyyətləri....................................4
3. Yarışların təşkili və keçirilmə şərtləri.......................................5
4. Geyim qaydaları..............................................................16
5. Yarışlardan kənarlaşdırma.................................................18
6. Oyunların vaxtının dəyişdirilməsi və təxirə salınması...............19
7. Oyunun protokolunun tərtib olunması...................................20
8. Qaliblərin müəyyən olunması.............................................20
9. Yarışların yeri və təşkilati məsələlər.....................................22
10. Startı mümkün olmayan və başa çatdırılmamış oyun.............30
11. Oyunun rəsmi şəxslərinin məsuliyyəti..................................32
12. Protestlər.....................................................................34
13. AFFA nümayəndəsi, hakimlik və inspeksiya...........................35
14. Matçların yayımının və media nümayəndələrinin akkreditasiyasının təşkili..........................................................39
15. Mükafatlandırma və xüsusi hədiyyələrin verilməsi..................45
16. Ödənişlər......................................................................46
17. Sifariş ərizəsinin verilmə qaydası və müddətləri.....................48
18. Premyer Liqa, I Liqa və Əvəzedicilər Liqasında məşqçi işləmək üçün tələblər......................................................................51
19. Sarı və qırmızı vərəqələrlə bağlı anlayışlar..........................53
20. Lisenziyalaşdırma..........................................................56
21. Dopinq-test prosedur qaydaları.........................................56
22. Video Köməkçi Hakim (VAR).............................................57
23. Azarkeşlərin stadionda davranış qaydaları...........................60
24. Xüsusi bənd..................................................................64